27 noyabr 2020-ci il
№40 (8904)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# QARABAĞ bizimdir, Azərbaycandır!



## Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa Ağdam və Kəlbəcərin işğaldan azad olunması müjdəsini verdi

-Əziz həmvətənlər.

Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.

-Əziz həmvətənlər.

Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi.



# Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim “Qurani-Kərim”i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!



# Adımızı dünya tarixinə qalib və məğrur xalq kimi yazdırdığınız üçün Sizə təşəkkür edirik



## Ağdam və Füzulidən olan təhsil işçiləri Ali Baş Komandana yazırlar

**Hörmətli cənab Prezident.**

Adımızı dünya tarixinə qalib və məğrur xalq kimi yazdırdığınız üçün Sizə təşəkkür edirik.

Bilirik ki, bu qələbə yalnız döyüş meydanında qazanılmadı. Sizin hansı sınaqlara tab gətirdiyinizi, nə qədər böyük təzyiqlərə məruz qaldığınızı bilirik. Biz bunları Sizin dünyanın aparıcı media orqanlarına verdiyiniz müsahibələrdən, təxribat xarakterli sualları necə tutarlı, əsaslı faktlarla cavablandırmağınızdan başa düşürük. Döyüş meydanında da, siyasi meydanda da Siz qalibsiniz, cənab Prezident.

Hörmətlə,

**Həsənova Şəfəq Qədulla qızı,**
*Ağdamdan məcburi köçkün,*
*19 saylı Ağdam rayon məktəbinin direktoru,*
*Bərdə rayonu*

---

**Müzəffər Ali Baş Komandan.**

Sizi ağdamlı gənc rəhbər qadın olaraq şəxsən öz adımdan və rəhbərlik etdiyim məktəbin kollektivi adından böyük Qələbə münasibətilə təbrik edir, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olaraq Sizə gələcək işlərinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Bu qələbə Sizin aparmış olduğunuz uğurlu siyasətinizin, qətiyyətiniz və xalqa inamınızın nəticəsidir. Allah Sizi Azərbaycan xalqının başının üstündən əskik etməsin!

Vətən uğrunda canından keçən şəhidlərimizin qarşısında baş əyir, onların hər birinə Allahdan rəhmət diləyirik.

Hörmətlə,

**Mehtiyev Zərif Qabil qızı,**
*12 saylı köçkün tam orta məktəbinin direktoru,*
*Ağdam rayonu*

**Cənab Prezident, Qarabağın Fatehi.**

İlk öncə Sizi Qarabağ zəfəri münasibətilə təbrik edirəm. Bizə yaşatdığınız bu şanlı tarix üçün çox sağ olun. Mən Füzuli rayonu, Böyük Bəhmənli kəndində doğulub böyümüşəm. Məcburi köçkün statusu ilə yaşasam da, daim ürəyimdə Vətənimin - Füzulimin nisgilini daşımışam. Bu, həm də bir qürur tarixidir. Sizin və şanlı Ordumuzun sayəsində artıq başımı dik tuturam. Mən Tibb Universitetinin 5-ci kurs tələbəsiyəm. Torpaqlarımızın erməni işğalından azad olunması üçün başlatdığınız əks-hücum əməliyyatlarının ilk günündən, sonuncu yaralı əsgəri yola salana qədər könüllü olaraq Füzuli Müalicə Diaqnostika Mərkəzində yaralı əsgərlərimizə tibbi xidmət göstərdim. Bu xidməti qürur və fəxarətlə Vətənimə, qardaşlarımın axan qanları qarşısında vicdan borcum hesab edərək və Sizinlə zəfərə inanaraq etdim. Siz və birinci xanımımız Mehriban Əliyeva bizim ellərə, işğaldan azad olunmuş Füzuli şəhərinə gələrək bizi qürurlandırdınız, dövlətlə xalqımızın sarsılmaz birliyini bir daha göstərdiniz. Amma əfsuslar olsun ki, Sizi yaxından görmək mənə qismət olmadı, çox istərdim Sizinlə görüşmək, bu zəfər tarixindən xatirə bir foto çəkdirmək.

Cənab Prezident, Sizə söz verirəm ki, daim ölkəmizin çiçəklənməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün öz sahəmdə, habelə informasiya cəbhəsində əlimdən gələni edəcəyəm.

Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Könül Rzayeva,**
*Tələbə, Füzuli rayonu, Böyük Bəhmənli kəndi*

---

**Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!**

Azərbaycanın tarix yazan sərkərdəsi kimi Sizi Ağdam rayon Zəngişalı kənd tam orta məktəbinin müəllimləri adından salamlayıram. Bir müəllim olaraq Sizin başlatdığınız bu haqq savaşındakı Qələbənizlə qürur duyuram. Siz Azərbaycanımızın Qarabağ boyda yarasına məlhəm oldunuz. Qara buludların ardından parlayan bir günəş kimi gələcəyimizə işıq saçdınız.

Siz və qüdrətli Ordumuzun igid əsgərləri bir daha dünyaya türkün məğrurluğunu, yenilməzliyini və gücünü göstərdiniz. Sizin uğurlu siyasətiniz nəticəsində Birinci və İkinci Qarabağ müharibələrində həlak olan günahsız mülki və hərbi şəhidlərimiz artıq məzarlarında rahat uyuyacaq. Yaşlı nəsil həsrət qoxan torpaqlarına geri qayıdacaq. Gələcəyimiz olan uşaqlar öz ata-baba yurdlarında ürəkli böyüyəcəklər. Bütün bu sevinci xalqıma yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Böyük şairimiz Hüseyn Cavid yazırdı:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü!

Allah Sizi və müzəffər Ordumuzu qorusun! Siz həqiqətən də bir dahisiniz!

Hörmətlə,

**Abbasova Aygün Vidadi qızı,**
*Ağdam rayonu, Zəngişalı kəndi*

**Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan!**

Sizi ağdamlı bir gənc olaraq şəxsən öz adımdan, rəhbərlik etdiyim Ağdam rayonu 65 saylı köçkün tam orta məktəbinin kollektivi adından Qarabağ Qələbəsi münasibətilə təbrik edir, Sizə Ulu Öndər yolunda uğurlar arzu edirəm.

Bizə yaşatdığınız Qələbə sevincinə görə Sizə və komandanlığınız altında şücaət göstərən hər bir hərbçimizə sonsuz minnətdarlığımızı bildiririk.

Hörmətlə,

**Abbasov Ruslan Qaffar oğlu,**
*Ağdam rayonu 65 saylı məktəbin kollektivi adından,*
*Mingəçevir şəhəri*

---

**Hörmətli cənab Prezident.**

Bu ağır Vətən müharibəsində bizə yaşatdığınız sevinc hissləri üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu Azərbaycan Respublikasını ağıllı və düzgün siyasətinizlə böyük zəfərlərə qovuşdurdunuz.

Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz şanlı tarix yazdı, xalqımızı bu ağır bəladan xilas etdi.

Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Şəhid qardaşlarımızın valideynləri qarşısında baş əyirik.

Hörmətli Ali Baş Komandan, Siz hər an xalqını düşünən böyük sərkərdəsiniz. Biz Sizinlə fəxr edirik.

Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Abbasov Mirürfət İbiş oğlu,**
*8 nömrəli tam orta məktəbin təsərrüfat müdiri, Füzuli rayonu, "Qayıdış-10" qəsəbəsi*

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA**



# Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edirəm

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ağdam rayonunun işğaldan azad olunması ilə bağlı rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

“Əziz həmvətənlər,

Sizi Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm və hər birinizə ən xoş arzularımı çatdırıram! Qoy Azərbaycanda daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün! Qoy ölkəmizdə hər bir ev nur, xeyirxahlıq və səadətlə dolsun! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”.




# Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcərin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

“Hörmətli həmvətənlər!

Sizi əlamətdar hadisə – Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy Şanlı Qələbəmiz hər evə, hər ailəyə bol sevinc, təbəssüm, səadət, ölkəmizə sülh və əmin-amanlıq gətirsin! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”



# Təhsil naziri Türkiyənin Nişantaşı Universitetinin rektoru ilə görüşüb

## Nişantası Universiteti münaqişədən zərərçəkmiş gənclər üçün təhsil təqaüdləri ayıracaq

**Noyabrın 20-də təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Nişantaşı Universitetinin rektoru Şenay Yalçın ilə görüşüb.**



Görüş zamanı Emin Əmrullayev 44 gün davam edən Vətən müharibəsinin şanlı zəfərlə yekunlaşdığı bu dövr ərzində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təcavüzü, müxtəlif şəhər və rayonlara raket zərbələri endirilməsi nəticəsində 10 məktəblinin həlak olduğu, 16 məktəblinin yaralandığı və 50 təhsil müəssisəsinin dağıntılara məruz qaldığı barədə məlumat verib.

Nazir Nişantaşı Universitetinin nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Gəncəni ziyarət etməsini və orada Ermənistanın hücumlarını pisləyən bəyanatı səsləndirməsini yüksək qiymətləndirib.

Nişantaşı Universitetinin rektoru Şenay Yalçın Ermənistanın təcavüzünü pislədiyini və Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bir daha ifadə edib. Rektor münaqişədən zərərçəkmiş ailələrdən olan gənclər üçün rəhbərlik etdiyi ali təhsil müəssisəsi tərəfindən təhsil təqaüdlərinin ayrılmasının nəzərdə tutulduğunu vurğulayıb.

# "Microsoft" korporasiyasının rəhbərləri ilə videokonfrans

Təhsil naziri Emin Əmrullayev "Microsoft" korporasiyasının vitse-prezidenti Anthony Salcito və korporasiyanın Avropa üzrə regional təmsilçiləri ilə videokonfrans keçirib.

Videokonfrans zamanı Azərbaycanda qısa müddət ərzində yaradılmış və ölkədə ən iri milli onlayn platforma olan "Virtual məktəb" layihəsinin uğurlu nəticələri, layihə çərçivəsində əməkdaşlığın genişləndirilməsi və sistemdə toplanılan məlumatlar əsasında təhsil sahəsində qərarvermənin təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Azərbaycanın distant təhsil sahəsində təcrübəsinin digər ölkələrlə bölüşülməsi də müzakirə mövzusu olub.

Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə yeni qurulacaq təhsil müəssisələrində müasir texnologiyaların tətbiqi, "Microsoft" məzmunun müəllimlərin ixtisasartırılması və hazırlanmasında tətbiqi, süni intellekt və bulud texnologiyalarının tətbiqi, valideynlər üçün distant təhsil üzrə təlimlərin təşkili, "Microsoft" lisenziyalaşdırması üzrə növbəti illərdə şirkətlə əməkdaşlıq mövzuları müzakirə olunub.

# 2021-2022-ci tədris ili üzrə Macarıstanda təhsil təqaüd proqramı

Macarıstan 2021-2022-ci tədris ili üçün təqaüd proqramı elan edir.

Təqaüd proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 7 dekabr 2017-ci il tarixində imzalanmış "2018-2020-ci illər üzrə İş Proqramı"na əsasən həyata keçirilir. Proqram Azərbaycan vətəndaşlarına müəyyən olunmuş ixtisaslar üzrə Macarıstanda təqaüd hesabına təhsil almaq imkanı yaradır.

Proqram çərçivəsində Macarıstan tərəfindən hər il 200 Azərbaycan vətəndaşı üçün təqaüd ayrılacağı nəzərdə tutulub.

Təqaüd proqramına sənəd qəbulu 15 yanvar 2021-ci il saat 23:59-a kimi aparılacaq.

Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı Macarıstan tərəfinin (TPF) yekun qərarının 2021-ci ilin iyun-iyul ayları ərzində təqdim olunması gözlənilir.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan vasitəsilə tanış ola bilərsiniz.

# "Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks etdirilməsi haqqında" Fəaliyyət Planı təsdiq edilib

Təhsil Nazirliyinin "Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks etdirilməsi haqqında" 2020-2021-ci tədris ili üçün Fəaliyyət Planı təsdiq edilib. Məqsəd ölkəmizin işğal altında olan ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailiyyətlərin təşviqinin aparılması, Azərbaycan Ordusunun şanlı qələbəsi barədə maarifləndirici tədbirlərin görülməsidir.

Fəaliyyət Planı 9 əsas istiqaməti əhatə edir. Planda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Vətən müharibəsi dövründə Azərbaycan dövlətini Şanlı Qələbəyə aparan daxili və xarici siyasəti barədə ətraflı məlumatların verilməsi, Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü və dünya hərb tarixində açdığı yeni səhifə ilə bağlı məlumatların bütün fənlərin məzmununa uyğun şəkildə inteqrasiyasının təmin olunması əks olunur.

Fəaliyyət Planında Qarabağ və işğaldan azad olmuş digər bölgələrin (yaşayış məntəqələrinin) tarixi və coğrafiyası, flora və faunası, mədəni abidələri, dini ibadətgahları, adət-ənənələri, şifahi xalq yaradıcılığı, tanınmış şəxsiyyətləri və s. barədə məlumatların dərslərə inteqrasiyası, müxtəlif layihə və tədbirlərin təşkili, vətəndaşlıq mövqeyinin formalaşmasında mənəvi və fiziki sağlamlıq amilinin əhəmiyyətinin təbliği əsas yer alır.

Həmçinin "Çağırışaqədərki hazırlıq" fənninin tədrisində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, şagirdlərin hərbi idman oyunlarında fəal iştirakının təşviqi, bu oyunlarda hər bir məktəbin öz komandası ilə təmsil olunması, şagirdlərin ordu sıralarında xidmətə mənəvi-psixoloji cəhətdən hazırlanmasını təmin etmək məqsədi ilə ərazidəki hərbi hissələrlə əlaqələrin möhkəmləndirilməsi, əsgər və zabitlərlə görüşlərin təşkili də bu istiqamətlər sırasındadır.

Plana əsasən, Vətən müharibəsi şəhidlərinin anım günləri keçiriləcək, onların həyat və mübarizə yolunu əks etdirən videobülletenlər hazırlanacaq. Bundan əlavə, "Dərs vaxtı" teledərs layihəsi çərçivəsində Vətən müharibəsinə, Azərbaycan Ordusunun şanlı qələbəsinə həsr edilmiş dərslər, videoçarxlar hazırlanması və telekanallarda yayımlanması nəzərdə tutulur.

# Təhsil Nazirliyi Sinqapur şirkəti ilə uzunmüddətli əməkdaşlıq edəcək

## Məqsəd təcrübə mübadiləsi etmək, təbiət fənləri üzrə təhsil proqramlarını, habelə dərslik komplektlərini təkmilləşdirməkdir

Məqsəd təcrübə mübadiləsi etmək, təbiət fənləri üzrə təhsil proqramlarını, habelə dərslik komplektlərini təkmilləşdirməkdir. Təhsil Nazirliyi Sinqapurun təhsil sahəsindəki nailiyyətlərini nəzərə alaraq, bu ölkənin "Alston" Nəşriyyat Evi ilə uzunmüddətli əməkdaşlığa imza atıb. Layihə Təhsil İnstitutu tərəfindən icra olunacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin Qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" təsdiq olunub. Sənədə əsasən V sinifdə "Təbiət" fənninin tədrisi planlaşdırılır. Bu məqsədlə Sinqapur nəşriyyatı ilə birgə layihənin ilkin mərhələsində xarici mütəxəssislərin konsultasiyası əsasında ibtidai təhsil səviyyəsində təbiət elmlərinin tədrisi üzrə kurikulum, təlim və tədris materialları təhlil olunacaq. Həmçinin beynəlxalq təcrübə və 21-ci əsrin tələbləri araşdırılacaq, müvafiq tövsiyələrə əsasən yenilənmə işləri aparılacaq. Təbiət elmləri üzrə təhsil proqramlarının təkmilləşdirilməsi və dərsliklərin hazırlanması məqsədilə azərbaycanlı fənn mütəxəssislərinə distant təlimlər keçiriləcək.

Layihə çərçivəsində I-IV sinif "Həyat bilgisi" fənni üzrə təhsil proqramındakı təbiət elmlərinə dair məzmun standartları yenilənəcək və yeni V sinif "Təbiət" fənni üzrə məzmun standartları yazılacaq. Bununla yanaşı, V sinif "Təbiət" fənni üzrə dərslik konsepsiyası və bu konsepsiya əsasında yeni dərslik komplekti hazırlanacaq.

Ümumi təhsil sahəsində aparılan beynəlxalq qiymətləndirmə tədqiqatlarına əsasən, Sinqapur dünya ölkələrinə liderlik edən ən yaxşı təhsil sistemlərindən birinə sahibdir. Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramının (TIMSS - Trends in International Mathematics and Science Study) 2015-ci il hesabatına əsasən, Sinqapurun IV sinif şagirdləri təbiət elmləri üzrə ortalama 590 bal toplayaraq 47 ölkə arasında birinci yerə, VIII sinif şagirdləri isə ortalama 597 bal toplayaraq 39 ölkə arasında birinci yerə çıxıb. Eyni zamanda Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramının (PISA - Programme for International Student Assessment) 2018-ci il hesabatına əsasən, təbiət elmləri üzrə Sinqapurun 15 yaşlı şagirdlərinin ortalama müvəffəqiyyəti 551 bal olub ki, bu da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı üzrə iştirakçı ölkələr arasında 2-ci yer deməkdir.



## Dünyaca məşhur alim Əziz Sancardan 3 yaşlı Xədicənin təhsilinə dəstək

Kimya üzrə Nobel mükafatçısı, Türkiyə əsilli dünyaca məşhur alim Əziz Sancar Ermənistanın oktyabrın 17-də Gəncəyə raket atəşi nəticəsində hər iki valideynini və bacısını itirmiş 3 yaşlı Xədicə Şahnəzərlinin gələcək təhsil xərclərinin ödənilməsi məqsədilə xüsusi olaraq yaradılmış bank hesabına əhəmiyyətli miqdarda vəsait köçürüb.

Əziz Sancar müharibədən əziyyət çəkmiş bu kimi uşaqların yüksək səviyyədə təhsil almaları üçün müvafiq təhsil fondlarının yaradılmasının faydalı ola biləcəyini vurğulayıb.



## Təhsil naziri Emin Əmrullayev Əziz Sancara minnətdarlıq etdi

Dünyaca məşhur alim, Kimya üzrə #Nobel mükafatçısı Əziz Sancarın (#AzizSancar) 3 yaşlı Xədicənin gələcək təhsilinə göstərdiyi dəstək bizi sevindirdi.

Göstərdiyi bu təşəbbüsə və dəstəyə görə çox hörmətli Əziz Sancara bütün təhsil ictimaiyyəti adından dərin təşəkkür edirik. Xədicənin gələcək təhsili üçün atılan bu addım, eyni zamanda Qarabağla bağlı Azərbaycanın haqq işinə də böyük dəstəkdir.



# Avropa Ali Təhsil Məkanına qoşulmuş ölkələrin növbəti nazirlər konfransı keçirilib



Noyabrın 19-da Avropa Ali Təhsil Məkanına (EHEA) üzv ölkələrin onlayn formatda növbəti nazirlər konfransı keçirilib.

Tədbirdə EHEA-ya qoşulmuş 48 ölkənin təhsil nazirləri, o cümlədən Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev iştirak və çıxış edib. Emin Əmrullayev çıxışında ölkəmizdə ali təhsil sahəsində həyata keçirilən islahatlar və son dövr ərzində bu yöndə əldə olunan uğurlardan söz açıb.

İtaliyanın sədrliyi ilə baş tutan tədbirdə EHEA-nın gələcəyi, inkişaf və əməkdaşlıq perspektivləri müzakirə edilib. Qeyd olunub ki, növbəti 10 illikdə EHEA-nın inkişafının üç əsas dəyər və hədəf üzərində qurulması nəzərdə tutulur: ali təhsilin inklüzivliyi (sosial inkluzivlik), innovativlik, əməkdaşlıq və mobillik.

Konfrans Bəyannamənin qəbul edlməsi ilə başa çatıb.

# Təhsil işçiləri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





Noyabrın 20-də Təhsil nazirinin müavini Firudin Qurbanov, nazirliyin əməkdaşları, məktəbdənkənar təhsil müəssisələrinin rəhbər heyəti, xüsusi nailiyyətləri ilə seçilən idmançılar Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş, erməni işğalçıları ilə döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etmək üçün mövcud pandemiya ilə əlaqədar sosial təhlükəsizlik qaydaları gözlənilməklə Şəhidlər xiyabanı ziyarət edilib, şəhidlərin məzarları üzərinə qərənfillər düzülüb, bütün şəhidlərimizin unudulmaz xatirəsi hörmət və ehtiramla anılıb.

## Təhsil Nazirliyi akademik məzuniyyətlə bağlı qaydalarda dəyişiklik edib

Təhsil Nazirliyinin Kollegiyası qismən səfərbərliklə əlaqədar hərbi xidmətə cəlb olunan tələbələrin təhsilində yarana biləcək çətinliklərin aradan qaldırılması məqsədilə akademik məzuniyyətin verilməsi qaydalarında dəyişiklik edib. "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"dakı dəyişikliyə əsasən, tələbələrə verilən akademik məzuniyyət hallarının əhatə dairəsi genişlənib. Belə ki, tələbəyə akademik məzuniyyət səfərbərlik üzrə hərbi xidmətə çağırıldıqda xidmətdən tərxis ediləndək veriləcək. Akademik məzuniyyətdən qayıdan şəxslər tədris prosesinə buraxılacaqlar.

Qərar noyabrın 24-dən qüvvəyə minib.

Qeyd edək ki, qüvvədə olan əvvəlki Qaydalara əsasən, akademik məzuniyyət aşağıdakı hallarda və müddətə verilirdi:

*- müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - xidmət müddətinə;*

*- ailə vəziyyətinə görə - 2 il müddətinədək;*

*- səhhətinə görə - həkim-məsləhət komissiyasının arayışında göstərilən müddətə;*

*- sosial məzuniyyətə çıxdıqda - qanunvericiliklə müəyyən olunmuş müddətə;*

*- müxtəlif proqramlar əsasında xarici ölkələrə təhsil almağa getdikdə - proqramda göstərilən müddətə.*

Bununla bağlı hər hansı sual yarandıqda vətəndaşlar Təhsil Nazirliyinin "Qaynar xətt"inə müraciət edə bilər.

## Tələbələrin nəzərinə!

Təhsil Nazirliyi *https://e-telebe.edu.az/* elektron portalı vasitəsilə tələbələrin müraciətlərinin qəbulunu dekabrın 1-dək davam etdirir.

Cari tədris (2020/2021-ci) ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş tələbələrdən, eləcə də sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrdən xahiş olunur ki, qeyd edilən tarixədək https://e-telebe.edu.az/ elektron portalına müraciətlərin edilməsini yekunlaşdırsınlar və natamam müraciətləri tamamlayaraq onları təsdiq etsinlər.

Qeyd edək ki, Təhsil Nazirliyi 30 sentyabr 2020-ci il tarixindən https://e-telebe.edu.az/ elektron portalı vasitəsilə cari tədris ilində ali, orta ixtisas və peşə təhsili müəssisələrinə qəbul olunmuş tələbələrin təhsil müəssisələrində elektron qeydiyyatına və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsinə dair müraciətlərin qəbulunu aktivləşdirib. Hazırda müraciətlərin qəbulu və emalı prosesi davam edir.

# Şuşa dərsləri

Noyabrın 21-də Təhsil Nazirliyinin dəstəyi və T-NETWORK təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə “Şuşa dərsi” təşkil edilib. Əvvəlcə ölkə Prezidenti cənab İlham Əliyevin “Əziz Şuşa, sən azadsan!” başlıqlı xalqa müraciətindən videoçarx təqdim olunub.

Qonaqları T-NETWORK adından salamlayan qurumun həmtəsisçisi Qoşqar Məhərrəmli qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Müzəffər Ordumuzun şücaəti ilə torpaqlarımız işğaldan azad olunub, tarixi qələbəmizi qazanmışıq. O, Təhsil Nazirliyinin Azərbaycanın tarixi qələbəsinin tədrisdə əks olunması ilə bağlı Fəaliyyət Planının təsdiq edilməsini diqqətə çatdırıb və qeyd edib ki, məqsəd Azərbaycan Ordusunun şanlı qələbəsi barədə maarifləndirici tədbirlərin, hərbi nailiyyətlərin təşviqinin aparılması, Qarabağda əldə olunan digər nailiyyətlərin tədrisə inteqrasiyası, layihə və tədbirlərin təşviqidir. “Şuşa dərsləri” də bu fəaliyyət planının bir tərkib hissəsidir. “Məqsədimiz Şuşa məktəbinin uğur sirrini, təhsil ənənələrini müzakirə etməkdir. Azərbaycanın 190 illik tarixi olan ilk dövlət məktəbi - Şuşa qəza məktəbinin nümunəsində çoxillik təcrübəsinə işıq salmağa çalışacağıq”.




## Firudin Qurbanov: “Şuşa məktəbləri doğma torpaqlarına qayıdış ruhu ilə yaşayırlar”

### Qürur və sevinc hissləri

Təhsili nazirinin müavini Firudin Qurbanov Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edib.

Olduqca maraqlı və əhəmiyyətli mövzuya həsr olunan seminarda iştirak edənləri Təhsil Nazirliyi adından səmimiyyətlə salamlayan Firudin Qurbanov onlara hörmət və ehtiramını, ən xoş arzularını çatdırıb. Qeyd edib ki, bu gün bütün dünya azərbaycanlıları təsvirəgəlməz qürur və sevinc hissləri keçirir. 2020-ci il sentyabrın 27-dən Ali Baş Komandanın rəhbərliyi ilə davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhər və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad edib. Azərbaycanın mədəniyyət incisi Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarətinə almağa nail olub. Bizim ordumuz öz müqəddəs dəyərlərimiz, Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə qalib gəldi. İllər boyu davam edən kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olundu. Vətənimizi müdafiə edən, əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq.

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, qələbə əzmi və dözümlüyü sayəsində mümkün olub. Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin.

Nazir müavini qeyd edib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü, müstəqilliyimizi göstərmişik. Gün gələcək müharibə dövrünün açıqlana biləcək məqamları, yəqin ki, ictimaiyyətə təqdim olunacaq. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Dünən Ağdam rayonu işğaldan azad olundu. Bu münasibətlə hamınızı təbrik edirəm. Əhalisinə görə Qarabağın ən böyük rayonu olan Ağdam siyasi yolla, itkisiz azad olundu.

### Şuşa Qarabağın tacıdır

F.Qurbanov xüsusilə qeyd edib ki, Qarabağın incisi, zəngin təbiəti və mədəniyyəti ilə seçilən Şuşa işğaldan azad olunub. Şuşa Qarabağın tacıdır. Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda çox böyük mənəvi məna daşıyır. Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin “Biz Şuşaya qayıtdıq. Biz Şuşanı qaytardıq. Biz Şuşada yaşayacağıq. Şuşanın 30 illik həsrətinə son qoyuldu” sözlərini xatırladan Təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın tarixi mərkəzinin UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısına salınması məqsədilə hazırda müvafiq işlərə başlanılıb. 1977-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Şuşa Tarix-Memarlıq Qoruğunun 2001-ci ildə UNESCO-nun Dünya İrsinin İlkin siyahısına daxil edilməsi bu istiqamətdə atılan mühüm addımlardan biridir.

**Azərbaycanın maarifçilik tarixində Şuşanın ədəbi, mədəni və təhsil mühiti böyük rol oynayıb. Ötən yüzilliklərdən üzü bəri müxtəlif sənət və peşə sahiblərinin, xüsusilə görkəmli ziyalıların yetişməsində bir ədəbi mühit kimi Şuşanın böyük rolu olub. 1830-cu il dekabrın 30-da Şuşada 19 şagirdlə açılan qəza məktəbi ilə Azərbaycanda dövlət təhsil sisteminin bünövrəsi qoyulub.**

**Şuşanın ermənilər tərəfindən 1992-ci ilin 8 may tarixində işğalından sonra Şuşanın məktəbləri respublikanın müxtəlif rayonlarında müvəqqəti məskunlaşıblar. Hazırda Şuşa rayonunda 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul olur.**

### Şuşa məktəbi Azərbaycanda dünyəvi təhsilin bünövrəsini qoyub

Azərbaycanın maarifçilik tarixində Şuşanın ədəbi, mədəni və təhsil mühiti böyük rol oynayıb. Ötən yüzilliklərdən üzü bəri müxtəlif sənət və peşə sahiblərinin, xüsusilə görkəmli ziyalıların yetişməsində bir ədəbi mühit kimi Şuşanın böyük rolu olub. 1830-cu il dekabrın 30-da Şuşada 19 şagirdlə açılan qəza məktəbi ilə Azərbaycanda dövlət təhsil sisteminin bünövrəsi qoyulub. Şuşa şəhərində dünyəvi məktəbin açılması böyük əlamətdar hadisə idi. Şuşada bu məktəbin açılması ilə Şimali Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyulmuş oldu. Bu məktəb Şuşanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında mühüm rol oynayıb. Şuşa əhalisinin maariflənməsində mühüm rola malik olub. Şagirdlərin sayına görə bu məktəb nəinki bütün Zaqafqaziyada və Qafqazda, hətta Rusiyada birinci yeri tuturdu. Qəza məktəbləri yerləşdikləri ərazidə yeganə təhsil müəssisəsi olmaqdan əlavə, həm də mədəniyyət mərkəzi kimi fəaliyyət göstərirdi. Şuşa məktəbi bu sahədə geniş mədəni-maarif işi aparırdı. Şəhərdə musiqiyə, ədəbiyyata maraq göstərilməsi məktəbdə müxtəlif mədəni tədbirlərin keçirilməsinə kömək edirdi. Eyni zamanda, bu məktəb Azərbaycanın o dövrkü inkişafı üçün fəaliyyət göstərən şəxslərin yetişməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bunların arasında məşhur müəllim Əliş bəy Tahirov, Azərbaycanın elmi-pedaqoji fikir tarixində görkəmli ədəbiyyatşünas pedaqoq kimi yer tutan Firudin bəy Köçərli və tanınmış pedaqoq Səfərəli bəy Vəlibəyov da var idi. 19-cu əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov və görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli həmin məktəbin məzunlarından olublar. Azərbaycan SSR-in Xalq artisti, Əməkdar incəsənət xadimi, professor Süleyman Ələsgərov ilk həyat hazırlığını məhz Şuşa 7 illik nümunə məktəbində oxuyarkən alıb.

Şuşanın ermənilər tərəfindən 1992-ci ilin 8 may tarixində işğalından sonra Şuşanın məktəbləri respublikanın müxtəlif rayonlarında müvəqqəti məskunlaşıblar. Hazırda Şuşa rayonunda 21 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə çalışan 480 nəfərə yaxın pedaqoji işçi 4 mindən artıq şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Dövlət tərəfindən Şuşa təhsilinə həmişə böyük diqqət yetirilib. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə 1982-ci il yanvar ayının 12-də Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyi təntənəli şəkildə keçirilib. 2010-cu ildə ölkə Prezidentinin sərəncamı ilə Cənubi Qafqazda birinci dünyəvi məktəb olan Şuşa şəhər 1 nömrəli orta məktəbin 180 illik yubileyi dövlət səviyyəsində qeyd olunub. Bu il bu məktəbin 190 yaşı tamam olur.

### Vətənə məhəbbət, gələcəyimiz olan uşaqlarımıza yüksək bilik

F.Qurbanov qeyd edib ki, bu gün də Şuşa məktəbləri, Şuşa müəllimləri harada olmalarından asılı olmayaraq uşaqların əsl vətəndaş kimi və vətənpərvər böyümələrinə, biliklərə yiyələnmələrinə məsuliyyətlə yanaşırlar. Şuşa məktəbləri, Şuşa müəllimləri doğma torpaqlarımıza qayıdış ruhu ilə yaşayır. Onları yaşamağa və işləməyə ruhlandıran böyük inam, Vətənə məhəbbət, gələcəyimiz olan uşaqlarımıza yüksək bilik verilməsidir.

Nazir müavini çıxışının sonunda tədbirdə müzakirə edilən önəmli məsələlərin, çıxışlarda səsləndirilən dəyərli fikirlərin və irəli sürüləcək təkliflərin seminarın işinə töhfəsini verəcəyinə və gələcəkdə bununla bağlı keçiriləcək görüşlər, tədbirlər üçün Şuşada təhsilin inkişafının təmin olunmasında faydalı olacağına əminliyini ifadə edib.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov nazir Emin Əmrullayevin salamlarını iştirakçılara çatdırıb. Bu kimi tədbirləri dəstəklədiyinə görə Təhsil nazirinə minnətdarlığını bildirən müşavir qeyd edib ki, 1830-cu ildə yaradılmış Şuşa məktəbi bütün Azərbaycana dərs, təhsil, elm verdi. 190 ildən sonra bütün Azərbaycan Şuşanın xilas olmasına öz töhfəsini verdi. Bu, bir simvolik məna daşıyır və Azərbaycan xalqının birliyini göstərir. Xalqla Prezident, Ali Baş Komandanın birliyi Ordunun əldə etdiyi qələbənin bir uğur sirridir. E.Nəsibov əlavə edib ki, Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks olunması məqsədilə Təhsil Nazirliyinin Fəaliyyət planı hazırlanıb. Bu, ilkin addımdır. Biz Qarabağımızın işğaldan azad olunmuş digər bölgələrinin tarixi, coğrafiyası, flora-faunası, mədəni, dini abidələri, şifahi xalq yaradıcılığı, tanınmış şəxsiyyətləri barədə məlumatları təhsilin məzmununa, dərsliklərə daha yaxından inteqrasiya etməliyik. Bu kimi tədbirlərin sayı da artırılmalı, sistemli xarakter almalıdır. Qələbənin əldə olunmasında təhsil sistemində çalışan əməkdaşlarımızın da rolu böyükdür və artıq onlarla bağlı siyahı hazırlanır. Təhsilin bütün pillələri üzrə Vətən müharibəsinin iştirakçılarının sayı yüzlərlə, minlərlədir.

Daha sonra Şuşa məktəblərinin uğur təcrübəsinə həsr edilən “Şuşa dərsi”ndə bu təhsil müəssisələrinin uğur sirri, təhsil ənənələri barədə müzakirələr aparılıb. Vaxtilə Şuşada məktəb direktoru, müəllim işləmiş və hazırda fəaliyyətlərini davam etdirən təhsil işçiləri, elm və təhsil xadimləri ilə aparılan müzakirələr vasitəsilə Azərbaycanın 190 illik tarixi olan ilk dövlət məktəbi - Şuşa qəza məktəbinin nümunəsində çoxillik təhsil tarixinə işıq tutulub.

Müzakirələrdə Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov, İctimai Şuranın üzvləri Asif Cahangirov, Nadir İsrafilov, Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov, Şuşa Rayon Təhsil Şöbəsinin müdiri Təvəkkül Əliyev, Şuşada məktəb direktoru işləmiş, hazırda Şuşa rayonu 5 nömrəli tam orta məktəbin direktoru olan Şükür Nəsibov, Şuşa rayonu 19 nömrəli tam orta məktəbin direktoru Rafael Məmmədov, vaxtilə Şuşada müəllim işləmiş, hazırda isə Şuşa rayonu 6 nömrəli tam orta məktəbdə direktor kimi fəaliyyətini davam etdirən Naimə Əliyeva, məktəbin müəllimi Raisə Fərəcova, Şuşa rayonu 24 nömrəli ümumi orta məktəbin direktoru Səbinə Gözəlova çıxış edərək öz təcrübələrini paylaşıblar.

Müzakirələr gedişində “Şuşa məktəblərinin uğur sirri nədir”, “Şuşadakı məktəblər hansı ənənələri ilə seçilib”, “Hazırda bu ənənələrdən hansılar davam etdirilir”, “Bu günün məktəblərinin Şuşa məktəblərindəki təlim-tədris praktikasından öyrənəcəyi nələr var”, “Dahilər yetişdirən məktəblərin xüsusiyyətləri nələrdir”, “Daha bir Ü.Hacıbəyovun, Firudin bəy Köçərlinin və digər dahi şəxslərin yetişməsi üçün nələr etmək lazımdır” kimi suallara cavab axtarılıb.

Təhsil Nazirliyinin rəsmi “Facebook” səhifəsi üzərindən canlı yayımlanan və təhsil ictimaiyyətinin böyük marağına səbəb olan “Şuşa dərsi”ni 30 minə yaxın insan izləyib.

**Oruc MUSTAFAYEV**

# Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytaran tarixi Zəfər



## Ali Baş Komandan İlham Əliyev qurucu lider, müzəffər sərkərdə kimi adını əbədi olaraq tarixə həkk etdi

**Havar Məmmədov,**
**Bakı Mühəndislik Universitetinin rektoru, professor**

**Azərbaycan illərdir həsrətində olduğu, səbrsizliklə gözlədiyi tarixi və qürurverici günlər yaşayır: Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz tərəfindən sözdən gerçəyə çevrilir. İndi azadlığına qovuşmuş və hər qarışı müqəddəs olan torpaqlarımızda Azərbaycan bayrağının dalğalanmasından keçirdiyimiz qürur hissini sözlə ifadə etmək heç də asan deyil.**

Azərbaycan əsgərinin gücü, peşəkarlığı, şücaəti, qanı və canı hesabına Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, həmçinin Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra diz çökən Ermənistan kapitulyasiya aktına imza ataraq digər ərazilərin təhvil verilməsi barədə öhdəlik götürdü. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycan Ordusunun bölmələri noyabrın 20-də Ağdam rayonuna, noyabrın 25-də isə Kəlbəcər rayonuna daxil olub. Birgə Bəyanata əsasən, dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil veriləcək.

Bu, tarixi Zəfərdir və 44 günlük Vətən müharibəsinin doğurduğu reallıqdır. 44 gün ərzində həyata keçirilən hərbi əməliyyatlar dövlətimizin tarixində, eyni zamanda hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq, heç vaxt unudulmayacaq ən parlaq səhifə kimi öz əksini tapacaq. Prezident, Ali Baş Komandan cənab İlham Əliyev şəxsi keyfiyyətləri, əzmi, qətiyyəti ilə əsrlərdir davam edən tarixi gedişatı dəyişməyi bacardı. Neçə 100 illərdir öz torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum olmuş Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytardı, Qarabağın işğaldan azad olunmasına böyük məharətlə rəhbərlik etdi. Tarixi ədaləti bərpa edən Ali Baş Komandan İlham Əliyev qurucu lider, müzəffər sərkərdə və xalqımızın ən böyük arzularını gerçəkləşdirən şəxsiyyət kimi adını əbədi olaraq tarixə həkk etdi. Qısa müddətli hərbi əməliyyatlar nəticəsində möhtəşəm Qələbə təmin olundu, bütün dünya sürətlə inkişaf edən Azərbaycanın, onun Prezidentinin və Ordusunun gücünü gördü. Təkbaşına öz ərazi bütövlüyünü təmin etməyi bacaran Azərbaycan bu gün öz tarixi torpaqlarına, doğma Qarabağımıza qayıdır və artıq həmin ərazilərdə şanlı Azərbaycan bayrağı dalğalanır.

Azərbaycan Ordusunun uğurlarının kökündə Prezident İlham Əliyevin son 17 ildə davam etdirdiyi, yeni çalarlarla zənginləşdirdiyi, çağdaş dövrümüzün tələblərinə uyğun çevik formada gerçəkləşdirdiyi Ulu öndər Heydər Əliyevin siyasəti dayanır. Ümummilli lider Heydər Əliyev vurğulayırdı: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm". Azərbaycan xalqı bu tarixi bəyanatın gerçəkliyinin bir daha əyani şahidi oldu. Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin bütün gözləntilərini 17 illik hakimiyyəti dövründə gerçəkləşdirməyi bacardı.

Prezident cənab İlham Əliyevin apardığı məqsədyönlü və uğurlu siyasət nəticəsində peşəkar ordu quruculuğu, yüksək diplomatiya, qabaqcıl informasiya təminatı və iqtisadi sahədə saysız-hesabsız nailiyyətlər qazanıldı. Cəmi 44 günə təmin olunan böyük Qələbənin qazanılması üçün illərdir düşünülmüş planlı siyasət həyata keçirildi. Ötən illərdə Azərbaycan çeşidli təzyiqlərlə, siyasi çəkişmələrlə üzləşdi. Dövlət başçımız İlham Əliyev bütün bunlara rəğmən bir addım olsun belə geri durmadı, müstəqil siyasət apararaq dövləti, xalqı daha da güclü şəkildə gələcəyə daşıdı, canından artıq sevdiyi ölkəsini davamlı olaraq inkişaf etdirdi.

Ötən 17 ildə Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi bir an olsun belə diqqətdən kənarda qalmadı. Ölkəmizin bu istiqamətdə mövqeləri gücləndi, ərazi bütövlüyümüz nüfuzlu qurumların rəsmi qərarlarında bir daha əks olundu. Bu qərarlar haqq işimizin uğurla yekunlaşmasında mühüm amil oldu. Azərbaycan Prezidenti həmin sənədlərin verdiyi üstünlüklərə, beynəlxalq hüquqa söykənərək hərbi əməliyyatlar zamanı ölkəmizə edilən təzyiqləri böyük ustalıqla dəf etdi. Məhz bu fəaliyyət sayəsində müharibənin gedişatında ölkəmizi dəstəkləyən dövlətlərin sayı artdı.

Beləliklə, ötən dövrdə səbirlə, təmkinlə yürüdülən siyasət nəticəsində qüdrətlənmiş Azərbaycan təkbaşına haqqı, ədaləti, beynəlxalq hüququ bərpa etməyə nail oldu. İndi bütün dünya haqqa söykənən Azərbaycanın artan gücü ilə də hesablaşmaq zorundadır.

Çox böyük peşəkarlıq, məharət, şücaət və fədakarlıq tələb edən döyüşlərdə Müzəffər Azərbaycan Ordusu şərəfli missiyanın öhdəsindən gəldi. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, ümumilikdə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə və çoxsaylı strateji yüksəkliklər düşmən tapdağından xilas oldu. Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən Qarabağın tacı olan Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatı dünya hərb tarixinin ən parlaq səhifələrindən birinə çevrildi. Müharibədə ağır itkilər verən? məğlubiyyətin qaçılmazlığını anlayan Ermənistan öz müqavimətini dayandırmağa, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməyə məcbur oldu, digər ərazilərin boşaldılacağı ilə bağlı öhdəlik götürdü və hazırda həmin ərazilərin qansız-qadasız boşaldılmasının şahidiyik. Azərbaycan, Rusiya Prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Azərbaycan Prezidentinin Kəlbəcərin işğaldan azad olunması münasibətilə xalqa müraciətində bildirdiyi kimi, müharibə kimin-kim olduğunu ortaya qoydu: "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir".

Prezident cənab İlham Əliyev 44 gün ərzində təkcə Ali Baş Komandan kimi cəbhədə gedən əməliyyatlara rəhbərlik etmədi. Bütün bu uğurlu əməliyyatlar Azərbaycana qarşı artan siyasi-diplomatik təzyiqlər şəraitində həyata keçirildi. Möhtərəm Prezidentimiz bu siyasi təzyiqlərə peşəkarlıqla, məharətli və vaxtında atılan diplomatik addımları ilə duruş gətirdi, bütün bu təzyiqləri neytrallaşdırdı. Cənab İlham Əliyev xarici televiziyalara verdiyi çoxsaylı müsahibələrində Azərbaycanın milli maraqlarının qətiyyətlə müdafiəsindən bir addım belə olsun geri durmadı, dünyada mövcud olan ikili standartları, riyakarlığı elə bu siyasəti icra edən ölkələrin televiziyalarına müsahibəsində ifşa etdi.

Bu zaman ərzində Gəncəyə, Bərdəyə, Tərtərə atılan ballistik və kasetli raketlər də birliyimizi pozmağa, həmçinin millətin ruhunu qırmağa hesablanmışdı. Amma baş verən bu müharibə cinayətləri Azərbaycan xalqının əzmini, iradəsini əzə bilmədi, onu qorxutmadı, əksinə gücləndirdi. Göstərilən təzyiqlərə baxmayaraq birliyimiz, Ali Baş Komandan ətrafında tək yumruğa çevrilməyimiz bizim bu bəlalardan çıxmağımızda mühüm rol oynadı. Ölkədə milli həmrəyliyi, xalq-iqtidar birliyini daha da gücləndirən cənab İlham Əliyev Azərbaycan xalqının onun ətrafında sıx birləşməsinə, sonsuz etimadına, inam və dəstəyinə güvənib şərəfli və çətin missiyanı həyata keçirdi. Bu dövrdə Azərbaycan əsl milli həmrəylik, birlik nümayiş etdirdi. Dünyanın hansı guşəsində yaşamasından, statusundan, eləcə də siyasi mövqeyindən asılı olmayaraq, hamı bir yumruq kimi Prezident İlham Əliyevin ətrafında birləşdi. Haqq işimizi yarıda qoymağa hesablanmış üçün xarici qüvvələrin təzyiqlərinə cəsarətlə sinə gərən, onları dəf edən cənab İlham Əliyev əsl fədakarlıq nümunəsi nümayiş etdirməklə, uzaqgörənlik, vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq, dönməzlik rəmzinə çevrildi. Nəticədə qazanılan Qələbə Azərbaycanın həm hərbi, həm diplomatik, həm də siyasi müstəvidə Zəfərinin təntənəsidir.

Azərbaycan müharibədən uğurla və güclü formada çıxdı, vətəndaşlarımızın 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu, əldə olunan qələbə xalqın inamını özünə qaytardı. Torpaqlarımızın işğaldan azad olunması uğrunda canını, qanını fəda etmiş qəhrəman oğullarımızın, şəhidlərimizin, həmçinin həlak olan mülki vətəndaşlarımızın qisası alındı. Azərbaycan dövlətinin hərtərəfli qayğısı ilə əhatə olunan şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və gələcək nəsillər onları hər zaman fəxrlə, qürurla yad edəcəklər.

Azərbaycanın şanlı bayrağı işğaldan azad edilmiş torpaqlarda əbədi dalğalanacaq! Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi, bundan sonra Azərbaycan xalqı qürur hissi ilə müzəffər xalq kimi yaşayacaq: "Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".

**Azərbaycan Ordusunun uğurlarının kökündə Prezident İlham Əliyevin son 17 ildə davam etdirdiyi, yeni çalarlarla zənginləşdirdiyi, çağdaş dövrümüzün tələblərinə uyğun çevik formada gerçəkləşdirdiyi Ulu öndər Heydər Əliyevin siyasəti dayanır. Ümummilli lider Heydər Əliyev vurğulayırdı: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm". Azərbaycan xalqı bu tarixi bəyanatın gerçəkliyinin bir daha əyani şahidi oldu.**

**Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi, bundan sonra Azərbaycan xalqı qürur hissi ilə müzəffər xalq kimi yaşayacaq: "Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".**



Vətən müharibəsi Azərbaycanın mütləq qələbəsi ilə başa çatdı. 44 gün davam edən müharibədə Azərbaycan dövləti, Şanlı Azərbaycan Ordusu bütün dünyaya göstərdi ki, dövlətimiz nə qədər güclü, ordumuz nə qədər rəşadətlidir. Ölkə başçısı cənab İlham Əliyevin atdığı qətiyyətli addımlar, yürütdüyü müdrik siyasət nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. 27 ildir Vətən, yurd həsrəti ilə alışıb yanan kəlbəcərlilər də indi böyük qayıdış gününü səbirsizliklə gözləyir.

Doğma yurda dönmək üçün saatları, dəqiqələri sayan Kəlbəcər təhsil işçiləri öz sevinclərini bizimlə bölüşüb.

# Evimizə qayıdırıq!

## Kəlbəcərimizdə gələcək nəsillərin təlim-tərbiyəsi ilə məşğul olacağıq

### "Bu qayıdış əbədi qayıdış olacaq"

*Kəlbəcər rayon 1 nömrəli tam orta məktəbin direktoru Nazim Qafarov* bildirir ki, uzun illər idi doğma yurd həsrəti ilə yaşayırdı. O, torpaqlarımızın azad olunacağı günə həmişə inandığını deyir: "Doğma torpaqlarımızı məcburi müvəqqəti tərk etdiyimizə inanırdıq. Xilaskarın gəlişinə olan inam bizə güc, qüvvət verdi ki, illərlə dözə bildik.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində 1993-cü ildə başlanan ordu quruculuğu 2003-cü ildə Prezident seçilən cənab İlham Əliyev tərəfindən şərəflə və uğurla davam etdirildi. Cənab İlham Əliyev bütün xalqın lideri olmağı bacardı və Azərbaycanı bir yumruq kimi düşmənə qarşı birləşdirə bildi.

44 günlük Vətən müharibəsi dövründə cənab Ali Baş Komandanın hər çıxışı bizi qələbədən qələbəyə apardı və 27 illik həsrət başa çatdı.

Kəlbəcər bizimdir, Kəlbəcər Azərbaycandır!

Mən Kəlbəcəri tərk edəndə 21 yaşım var idi. İndi oğlumun 21 yaşı var. Ata-oğul eyni yaşda "Böyük Qayıdış"a hazırlaşırıq. Bu qayıdış əbədi qayıdış olacaq. Heç bir qüvvə bizi Kəlbəcərimizdən ayıra bilməz. Biz Kəlbəcərimizə qurmağa, yaratmağa, bərpaya və yeni ömrü yaşamağa qayıdırıq.

Yaşasın Azərbaycan, Yaşasın Ali Baş Komandan! Xilaskar Ordumuza eşq olsun!"

### "Dördüncü sinifdə oxuyarkən tərk etdiyim kəndə müəllim kimi qayıdıram"

*Vüsal İsgəndərov Kəlbəcər rayon 55 nömrəli tam orta məktəbin müəllimidir.* O, 27 illik həsrətdən sonra vətənə qayıtmağın sevincini yaşadığını deyir: "Kəlbəcərin torpağı, təbii sərvətləri işğal olunsa da, ruh və mənəviyyatı həmişə azad olub. Bu azad düşüncənin, uca mənəviyyatın işığında bu gün biz Kəlbəcərə qayıdırıq. O yerə qayıdıram ki, orada dünyaya göz açmışam, torpağına ayaq basmışam, məktəbə getmişəm. Uşaqlıq xəyallarımın şah əsəri, zümzüməsi ilə mənə laylay çalan dəlisov Tutqu çayı, o biri başında işıq gözləyən Tunel yolu, büllur bulaqları, yağışı, günəşi, ildırımı, tufanı ilə insanları da möhkəm, sərt, vüqarlı edən əfsanəvi təbiət! Sənə doğru gəlirik. Bir daha mən o kənddən qaçqın düşüb çadırlarda yaşamayacağam, altı orta məktəbdə oxumaq talesizliyi yaşamayacağam. Dördüncü sinifdə oxuyarkən tərk etdiyim kəndə indi müəllim kimi qayıdıram. Bu sevinci bizə yaşadan Ali Baş Komandanımıza, Əsgərlərimizə minnətdarlığımı bildirirəm. Uca Şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

### "Bu tarixi qayıdış biz müəllimlərin qarşısında böyük məsuliyyət qoyur"

*Kəlbəcər rayon 74 nömrəli ümumi orta məktəbin direktoru Elməddin Əsədov* ömrünün 27 ilini Kəlbəcərsiz keçirdiyini və bu günlərin çox ağır olduğunu söyləyir: "Məcburi köçkünlük illərini çox acı xatirələrlə xatırlayacağam. Doğma torpaqlarımızdan didərgin düşdüyümüz ilk illərdə çadır şəhərciklərində, yataqxanalarda ağır günlər keçirmişik. Bütün bunlara baxmayaraq içimizdəki vətən sevgisi yurda qayıdacağımıza olan inamımızı əsla qırmamışdır.

Azərbaycan xalqı ən çətin anlarda belə milli birlik nümayiş etdirərək xalqın ümumi mənafeyi üçün birləşə bilmişdir. Bu birlik xalqla hakimiyyətin vəhdətindən qidalanır. Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldiyi ilk dönəmlərdə də bir qarış torpağımızın erməni qəsbkarlarına güzəştə gedilməyəcəyini bəyan etmişdir. Cənab Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət nəticəsində biz böyük qələbə çaldıq. Torpaqlarımızı işğaldan azad etdik".

Elməddin Əsədov doğma yurda qayıdışdan sonra bir müəllim, ziyalı kimi onların üzərlərinə böyük məsuliyyət düşdüyünü də sözlərinə əlavə edib: "Kəlbəcərdən çıxanda beşinci sinifdə oxuyurdum. Gözəl məktəbimiz, savadlı müəllimlərimiz və içimizə sığmayan arzularımız vardı. Dövlətimizin mənim kimi gənclərin oxuyub savadlanması üçün hər cür şərait yaratması doğma yurduma müasir Azərbaycan müəllimi kimi dönüşümə hesablanmış dövlət dəstəyinin göstəricisidir. İndi bu tarixi qayıdış öz doğma yurd-yuvamızda mənim kimi müəllimlərin qarşısında böyük məsuliyyət qoyur".

### "Kəlbəcərdə təhsilə, elmə, mədəniyyətə həmişə böyük maraq olub"

*Kəlbəcər rayon 109 nömrəli tam orta məktəbin müəllimi Şikar Baxışov:* "Nəhayət, 27 illik həsrətə son qoyuldu. Ali Baş Komandanımızın əmri ilə Rəşadətli Ordumuz mənfur düşməni qısa bir zamanda cənnət Qarabağımızdan qovub cıxardı. İllər öncə öz valideynlərinin əlindən tutaraq ata ocağını tərk etməyə məcbur olmuş oğullar indi tank belində həmin yerlərə döndülər".

Şikar müəllim onu da qeyd edib ki, Kəlbəcərdə təhsilə, elmə, mədəniyyətə həmişə böyük maraq olub. O, kəlbəcərli ziyalıların sorağının təkcə respublikamızın deyil, xarici ölkələrin də ali təhsil ocaqlarından, elmi-tədqiqat mərkəzlərindən, dövlət orqanlarından gəldiyini bildirib: "İndi hər bir kəlbəcərlinin ürəyi tezliklə doğma yurda dönmək arzusu ilə döyünür. Böyükdən-kiçiyə hər birimizin qəlbi vandalların darmadağın etdiyi, daşını, ağacını, hətta torpağını belə qablara yığaraq aparmağa çalışdığı yurdlarımızı yenidən qurmaq, abadlaşdırmaq, güllü-gülüstana çevirmək eşqi ilə alışıb yanır".

### "İnanırdıq ki, torpaqlarımız işğaldan azad ediləcək"

*Kəlbəcər Rayon Təhsil Şöbəsinin məsləhətçisi Qabil Həsənəliyev* qələbə sevincini yaşadığına görə Ali Baş Komandana minnətdarlığını bildirir. O, işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasını, məscidlərimizdə azan səslərinin eşidilməsini çox qürurverici olduğunu deyir: "Uşaqdan böyüyə hər bir azərbaycanlı inanırdı ki, torpaqlarımız işğaldan azad ediləcək, soydaşlarımız öz doğma yurd yuvalarına qayıdacaqdır".

Qabil Həsənəliyev ötən 27 il ərzində hər zaman məktəblərdə Kəlbəcər xatirələrinin yaşandığını, Kəlbəcəri görməyən, Kəlbəcərdə anadan olmayan uşaqların doğma yurdu görmədən belə nə qədər sevdiklərini sözlərinə əlavə edib. "Biz inanırıq ki, qısa müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda, o cümlədən doğma Kəlbəcərimizdə möhtəşəm layihələr həyata keçiriləcək. Müasir tələblərə cavab verən yeni məktəblər istifadəyə veriləcək. Biz təhsil işçiləri doğma Kəlbəcərimizdə gələcək nəsillərin təlim-tərbiyəsi ilə məşğul olacağıq. Bu anları yaşamaq çox qürurverici bir hissdir. Allah vətən uğrunda canından keçən şəhidlərimizə rəhmət eləsin! Vətəni müdafiə edən hər bir Əsgərimizi uca yaradan pənahında saxlasın".




### "Ürəyim, ruhum Kəlbəcərə sarı pərvazlanır"

*Kəlbəcər rayon Ş.Şükürov adına 35 nömrəli tam orta məktəbin direktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elşən* Əzim də doğma yurda qayıdışla bağlı fikirlərini deyib: "Müzəffər Ali Baş Komandanın əzəmətli rəhbərliyi ilə baş tutan Vətən savaşı Azərbaycan xalqının qəhrəmanlıq tarixində yeni səhifə açdı".

Elşən Əzim köçkün düşdükləri dövrdə heç vaxt ümidlərini itirmədiklərini, ən ağır anlarda da, xoş günlərdə də ürəklərinin Kəlbəcərlə döyündüyünü bildirdi: "Şairlərimizin qələmi, aşıqlarımızın sazı, ən sadə soydaşımızın ürəyi, ruhu hər an "Kəlbəcər" dedi. Şagirdlərimizi də bu ruhda, ovqatda tərbiyə etdik və Qarabağı görməyən gənc əsgərin cəbhədəki şücaətində bu təlim-tərbiyənin rolu az olmadı.

Kəlbəcəri tərk edəndə 18 yaşım vardı... Bu gün qayıdış astanasındayıq, sanki 18 yaşıma dönmüşəm. Ürəyim, ruhum Kəlbəcərə sarı pərvazlanır.

Son illər ərzində dünyanın bir neçə ölkəsində Azərbaycan ədəbiyyatını təmsil etdim və bütün tədbirlərdə Kəlbəcərdən gətirdiyimiz evimizin açarlarına, doğma yurdla bağlı qalan qıfıla həsr etdiyim şeiri söylədim. Xarici dillərə tərcümə olunub çap olunan yazılarım arasında o şeir həmişə ilk sırada oldu. Azərbaycan həqiqətlərindən xəbərsiz insanları belə bu mövzu kövrəlti. Kəlbəcərdə qeyri-qanuni məskunlaşdırılmış mənfur düşmən isə o yerlərə maddi, ekoloji ziyan vuraraq tərk edirlər, çünki o torpaqların bizə məxsus olduğunu, bir daha geri dönməyəcəklərini yaxşı bilirlər.

Budur, saatları, günləri sayırıq. Bu da həsrətin bir başqa biçimdə təzahürüdür. Bəli, başqa biçimdə... 27 ilin acı həsrətindən, ağır iztirablarından fərqli bir intizar ovqatı yaşayırıq. Artıq bu, acı həsrət deyil, ümidsiz hicran deyil, bu, vüsala qovuşmağın bir addımlığındakı həyəcan dolu şirin bir həsrətdir".

**Niyazi RƏHİMOV**

# Sinifdən səngərə

İsti sinfi soyuq səngərə, lövhəni düşmənə dəyişdi hər biri. Bir an belə düşünmədilər. Lövhə qarşısında elm bələdçisiykən, düşmən qarşısında topdağıtmaz istehkamı əvəz edilər. Hər biri son dərsinə girdi. Düşmənə elə bir dərs keçdilər ki, çətin ki, uzun müddət özlərinə gələlər.

## Müəllimlərin düşmənə keçdiyi dərs dillərə dastan olur

## Kürdəmirdə şagird, Masazırda müəllim, Şuşada şəhid oldu



Həmin qəhrəman müəllimlərdən biri Qoşqardır. Atası onun adını "Qoşqar" qoyanda, yəqin körpəsinə verdiyi adın onun həyatında oynayacağı rolu heç ağlına da gətirməmişdi. Qoşqar düşmən üçün keçilməz dağ, valideynləri və milləti üçün qürur yeri oldu. Düşmənin köksünə çəkdiyi dağı görüb-eşidənin qürurdan ürəyi dağa döndü.

Dağ misallı igid Azərbaycan balası Qoşqar Ömərov Kürdəmirdə doğulub, Abşeron rayonunun Masazır kəndindəki ən müasir məktəblərdən birində, 5 nömrəli tam orta məktəbdə şagirdlərinə hesablama elmini öyrənməkdə bələdçilik edirdi. Ta sentyabrın 27-nə qədər o bir müəllim idi şagirdlərinin gözündə. Amma artıq, yəni Şuşanın Daşaltı kəndi uğrunda gedən döyüşlərdə şəhid olandan sonra bir qəhrəmandır. 44 günlük Vətən müharibəsinin son günlərinə qədər döyüşdü. Noyabrın 5-də şəhidlik zirvəsinə yüksələnədək davam edən ömrü qısa olsa da, amacı böyük olan döyüş yolunu da məharətlə 26 illik ömrünə sığdırdı.

### Müəllim Qoşqar

Qoşqar Ömərov 2018-ci ildən müəllim idi. Müəllimlərin işə qəbulu müsabiqəsində 57 bal toplayaraq riyaziyyat müəllimi kimi sinfə girmək hüququ əldə edib. Müsahibədə də uğur qazanaraq Masazır kənd 5 nömrəli tam orta məktəbində dərs deməyə başlayıb. Məktəbin direktoru Səlim Məmmədov qısa müddətdə yaxşı müəllim olmağı bacaran Qoşqar Ömərovun bu qabiliyyətinin ailədən gəldiyini deyir. Ailədən gələn başqa xüsusiyyətləri də vardı. Ən əsası, insani keyfiyyətləri çox idi: "Çox ləyaqətli insan idi. Şagird və müəllimlərimiz arasında hörmət qazanmışdı. Təəccüb doğuracaq qədər gözütox idi. Ona dərs saatını zorla verirdik. Dərs bölgüsündə hər zaman geridə dayanırdı. Riyaziyyat müəllimləri xanımlardır. O, yeganə kişi müəllim idi. Soruşanda ki, gücün nəyə çatar, dərslə təmin edək, deyirdi xanım müəllimlər ehtiyacı olanı götürsün, yerdə qalanı mənə versinlər".

Vətən müharibəsində ona ehtiyac olduğunu da bilirdi: "Tovuz döyüşlərindən sonra hərbi komissarlığa müraciət etmişdi. Ordu sıralarına könüllü qatılanlardan idi. Müharibə başlayan kimi də çağırıldı. Həqiqi hərbi xidmətdə hesablayıcı artilleriyaçı olub. O vaxt fərqlənib də. Təltifləri vardı.

Ailəsi ilə əlaqə saxlayırdı. Axırıncı dəfə şəhadətindən 4-5 gün əvvəl danışdıq. Elə danışırdı ki, sanki ömrünü hərb sənətinə həsr etmiş artilleriyaçı idi. Döyüşlərdən, Ordumuzun qüdrətindən qürurla söhbət açdı. Sonra da şəhadət xəbərini aldıq. Onun məzarını, ailəsini sadəcə kollektivimiz yox, valideynlər, şagirdlərdən də ziyarət edənlər çox oldu".

### Oğul Qoşqar

Atası Səxavət müəllim danışmaqda tərəddüd edir. "Oğlumdan nə danışım" deyib nümunəvi balasını öyməyə utanır müəllim oğulun müəllim atası. Kürdəmir rayonu Qarasu kənd tam orta məktəbin riyaziyyat müəllimi Səxavət Ömərov üçün o, hələ "körpə" oğludur. Baxmayaraq ki, atasına məhz o, ikinci həyat verib: "Çox ağır xəstəydim. Çarəmi heç yerdə tapa bilmirdilər. Xəstəxana-xəstəxana gəzdirdi məni. O yer qalmadı aparmasın. İnternetdə axtardı, dostlarının köməyi ilə axtardı. Onda gördüm Qoşqarın nə qədər sevildiyini, böyük ətrafı, çoxlu dostları olduğunu. Axır tapdı çarəmi. Nadir xəstəliklərdən biri çıxdı".

Səxavət müəllim oğlunun da müəllimi olub. Həm riyaziyyatı sevdirib, həm də müəllimliyi: "V-XI siniflərdə riyaziyyatdan dərs demişəm. Sinfin lideri idi. Uşaqlığından mərd, sözünün üstündə duran, haqsızın yanında dayanan, sözünü deməyi bacaran idi. Öz üzərində işləyirdi. Fiziki cəhətdən özünü ev şəraitində yaratdığı alətlərlə inkişaf etdirmişdi. Təlimlərdən sonra deyirdi ki, 3 adam mənimlə bacarmır. Buna baxmayaraq, döyüşkən, dalaşqan deyildi. Problemləri ağılla həll edirdi. Psixoloji cəhətdən də möhkəm idi".

### Şagirdləri yolunu davam etdirəcəklər

Azərbaycan Dövlət Pedaqoji Universitetini bakalavr, Memarlıq və İnşaat Universitetində isə magistratura təhsili alan Qoşqar Ömərov doktorantura təhsili də almaq istəyirmiş: "Mənə deyirdi ki, Bakıdan ev alıb sonra doktoranturada təhsilini davam etdirəcək. Mən pensiyaya çıxandan sonra anası ilə məni yanına aparmağı planlaşdırırdı.

Qoşqara riyaziyyatı, müəllimliyi bir də Vətəni atası Səxavət müəllim sevdirdi. Qoşqar isə atasından öyrəndiklərini öz şagirdlərinə ötürdü.

Bəlkə arzuları gerçəkləşmədi, amma hədəfinə nail oldu. İndi onun yolunu davam etdirmək istəyən Pərvanə Qasımova kimi şagirdləri var: "Söz verirəm ki, mən də Qoşqar müəllim kimi riyaziyyat müəllimi olacağam".

## Şərəflə yaşadığı müəllim ömrünün Şəhidlik zirvəsi



Qubadlı uğrunda gedən döyüşlərdə Lənkəran şəhər A.Məhərrəmov adına 7 nömrəli tam orta məktəbin müəllimi Emil Qurbanov 5 güllə yarası alaraq şəhadət şərbətini içdi. Ondan geriyə hər birinin həyatında dərin iz buraxdığı yetirmələri, xatirələrində gözəl anlarla yaşayacağı dost-tanışı, bir də vətən əmanəti qızı qaldı. III kursda oxuyan tələbə qızı Emilyaxanım deyir, atasının yeri yaman görünür. Xüsusən, axşam düşüb şər qarışanda qapıdan girən atasının sevgi dolu öpüşü üçün çox darıxır.

İxtisasca müəllim olan həyat yoldaşı Vüsalə Qurbanova üçün bu boşluğu doldurmaq asan olmayacaq. Lənkəran şəhər 17 saylı Körpələr Evi - Uşaq bağçasında metodist vəzifəsində çalışan Vüsalə müəllim indi Emil müəllimlə Girdəni kəndində birgə qurduqları yuvalarında yeganə balası, Emil müəllimin yadigarı ilə yarım qalan həyatlarını tək davam etdirir: "25 ildir Emili tanıyıram. Uşaqlığım, gəncliyim onunla keçib. Əvvəlcə sinif yoldaşı, sonra tələbə yoldaşı, daha sonra da ömürgün yoldaşı olduq. Oktyabrın 27-də evliliyimizin 19-cu ildönümünü qeyd etdik. Ondan 2 gün sonra şəhid oldu. Bundan sonra da birgə olacaqdıq. Elə xəyallar qururduq. Hələ məktəbi bitirməyimizin 25, 30 illiklərini qeyd edəcəkdik".

Emil müəllim Lənkəran şəhər 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlığı müəllimi, təlim-tərbiyə işləri üzrə direktor müavini idi. Hərbi xidmətdən sonra bir müddət hərbçi kimi fəaliyyətini davam etdirib taqım komandiri olmuşdu. Ancaq sonradan ailəsini yanına apara bilmədiyindən özü hərbi hissədə fəaliyyətini dayandıraraq rayona, ailəsinin yanına qayıdıb. Həm məzunu olduğu 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlıq müəllimi, həm də "Zirvə" İdman Kompleksində məşqçi kimi işə başlayıb. 2006-cı ildən bu yana yetişdirdiyi idmançılarla böyük uğurlara imza atıb: "Məktəbdə "Xəzər" komandasını yaradıb. Komandanın üzvləri dəyişirdi, amma uğurları yox. Diplomlar, fəxri fərmanlar qazanırdılar".

### "Pis vərdişləri olan uşaqların həyat tərzini dəyişirdi"

Emil Qurbanovun müəllimi olduğu məktəbdə də onun yoxluğu hiss olunacaq. Məktəbin direktoru Səadət Kazımova Emil müəllimi cəsarəti, mərdliyi ilə xatırlayır: "Sözünə bütöv, mərd biri idi. Cəngavər kimi bir insan idi. Məktəbimizin keçmiş direktoru ona "Koroğlu" deyirdi. Əsl insan idi. Müəllim, şagird, valideyn - fərqi yoxdur, yolda gördüyü hər kəsi maşınına götürür, evinə qədər aparıb düşürürdü. Məktəbimizdə çətin tərbiyə olunan uşaqları məşqçisi olduğu "Zirvə" İdman Kompleksinə cəlb edir, pis vərdişləri olan uşaqlara yeni həyat verir, uşaqların həyat tərzini dəyişirdi".

Məktəb direktoru Emil Qurbanovun dəfnindəki izdihamı Vətən müharibəsi şəhidinə olan son borc olmaqdan əlavə Emil müəllimə olan sevginin də təzahürü hesab edir.

### Şagirdi: "Qazandığım çox şeyi Emil müəllimin sayəsində əldə etmişəm"

Şagirdi olmuş Pərvin Hüseynzadə isə 10 ildir onu tanıyırdı. Dediyinə görə, Emil müəllim yüzlərlə başqa şagird kimi, onun da həyatını dəyişib: "Mən onu hələ bizə dərs deməmdən əvvəl tanıyırdım, amma o məni 7 nömrəli məktəbdə bizə dərs deməyə başlayandan sonra tanıdı. X-XI sinifdə mənə dərs deyib. Əvvəllər onun özündən razı olduğunu düşünürdüm. Amma tanıdıqca mehriban, canayatan, qayğıkeş biri olduğunu gördüm".

Beləcə şagirdlərin sadəcə biri - Pərvin Hüseynzadə ilə müəlliminin yol yoldaşlığı başlayır: "Məni idmanla məşğul olmaq üçün özünün məşqçi kimi çalışdığı "Zirvə"yə dəvət etdi. "Gəl bizlə bir yerdə məşq edək", - dedi. Həyatımda mənim böyük qardaşım oldu. Onun xətrin dünyalar qədər istədim".

Bu yoldaşlıq Pərvin məzun olandan sonra da davam edib: "Məni hərbi xidmətə yola saldı, qayıdanda arıqlamışdım. Mənimlə özü məşğul olurdu. Bir də onda gördüm ki, yaşıdlarımdan böyük görünürəm. Sonra atam avtoqəza keçirdi, həyatımda birdən-birə çoxlu problemlər yarandı. 12 günün içində 15 kilo arıqladım. Emil müəllim mənə ürək-dirək verdi, həmişə yanımda oldu. Danışıb-gülən adam idi. Bu gün qazandığım bir çox şeyi, o cümlədən işimi Emil müəllimin sayəsində əldə etmişəm. Təsəvvür edin, 10 il hər gün onun yanında olmuşam. Ən əziz insan idi mənim üçün".

Pərvin bir də ona təəssüflənir ki, həyatının ən çətin məqamlarında yanında olan müəllimini Vətən müharibəsinə yollanarkən yola sala bilməyib: "Kursa getmişdim. Rayona qayıdanda öyrəndim ki, Emil müəllim gedib. Müharibəyə getməyindən sonradan xəbər tutsam da, şəhid olduğunu hamıdan əvvəl öyrənmişdim. Bizim könüllü olaraq müharibəyə gedən uşaqlardan biri qardaşına zəng edəndə demişdi Emil müəllimin şəhid olduğunu. Emil müəllim döyüşə gedəndə görüşüblər, hamı qayıdıb, o yox. Ona demişdilər ki, Emil məllim başından yaralanıb".

Pərvin deyir, Emil müəllimlə dəfələrlə yarışa qatılıb, nailiyyətlər qazanıblar: "Şahinlər yarışında iştirak edib III yeri tutmuşduq. Hərbi yarışlarda uğur qazanırdıq. Emil müəllim "Bench press" üzrə 212 kiloqram çəki dərəcəsində Azərbaycan rekordçusu idi".

"Bench press" rekordçusu savaşda da öndəydi. Başqa cür ola da bilməzdi. Öncə tabor komandiri, sonra müəllim və məşqçi arxada necə qala bilərdi?! Qalmadı və şərəflə yaşadığı müəllim ömrünü şəhid olaraq başa vurdu o da.

**Ruhiyyə DAŞSALAHLI**

# Biz o yerləri yenidən cənnətməkan diyara çevirəcəyik




Noyabrın 20-də Silahli Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, həmişəki kimi, yenə də Azərbaycan xalqına müjdə verdi. Prezident Ağdam rayonunun işğaldan azad olunduğunu elan etdi. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində qurduğu Müzəffər Azərbaycan Ordusu böyük bir tarixi qələbə qazandı. Belə bir tarixi gündə artıq məcburi köçkün olmayan Ağdam təhsil işçilərinin keçirdikləri sevinc və fərəh hisslərini qələmə aldıq.

# Ağdam təhsil işçiləri sabaha nikbin baxırlar

### “Biz müəllimlər daha qürurlu, əzmli vətəndaş yetişdirəcəyik”

*Ağdam Rayon Təhsil Şöbəsinin müdiri Mətanət Misirxanova* Ağdamla bağlı xatirələrini danışaraq müqəddəs torpaqlarımızın yağı düşmən işğalından azad olunması xəbərini eşidən böyükdən-kiçiyə hər kəsin gözündə sevinc və həmrəylik ifadəsinin böyük qələbənin təcəssümü olduğunu qeyd edib. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində xalqımızın böyük qələbəsini tariximizin zəfər salnaməsi, parlaq səhifəsi kimi dəyərləndirib: “Mən Ağdam rayonunun Kəngərli kəndində dünyaya göz açmışam. Qayğısız uşaqlığım Ağdamda keçib, lakin mən gəncliyimi xatırlamıram, sanki onu itirmişəm. Çünki 19 yaşımda məcburi köçkün olmuş və ömrümün 28 ilini sanki bir tərəfim olmadan yaşamışam. Düzdür, bu illər ərzində oxumuşam da, işləmişəm də, ailə qurmuşam da. 27 ildir doğma kəndimdən ayrı düşmüşəm. Bu illərdə çətinliklərimiz çox olub. Ən böyük çətinlik isə yurd həsrəti ilə yaşamaq olub.

Nəhayət ki, 20 noyabr 2020-ci il tarixdə mənim və mənim kimi minlərlə insanın arzuları çin oldu. Şükürlər olsun Allaha! Prezidentimizin qətiyyəti, Ordumuzun gücü sayəsində Ağdam rayonu işğaldan azad olundu. İllərdir həsrətini çəkdiyimiz Vətənimizə qovuşuruq. Ağdamın azad olunması xəbərini eşidəndə uşaq kimi ağladım. Prezidentimizə minnətdarlığımı bildirirəm. Bu gündən sonra biz də özümüzü tam- bütöv hesab edəcəyik. Bunun üçün biz Sizə borcluyuq - Ali Baş Komandan!!! Sizin rəhbərliyiniz altında tarix yazan Azərbaycan Ordusuna borcluyuq!!! Müqəddəs qanlarını vətən torpaqlarına qarışdıran Şəhidlərimizə borcluyuq!!!

Çox az vaxtda Ali Baş Komandanın rəhbərliyi ilə bütün işğaldan azad olunmuş ərazilərimiz əvvəlkindən də gözəl olacaq. Birlikdə qurub, tikib, yaradacağıq. Biz müəllimlər daha qürurlu, əzmli vətəndaş yetişdirəcəyik.

### “Kəndimizdə pedaqoji fəaliyyətimi davam etdirəcəyəm”

*Ağdam rayonu Quzanlı qəsəbə tam orta məktəbinin müəllimi, Əməkdar müəllim Eliza İsayeva* xalqımızın dövlət başçısı ətrafında birləşərək Ordumuza dəstək, birlik nümayiş etdirməsindən qürur, fəxarət hissi duyduğunu bildirib: “27 il müharibə şəraitində yaşayıb işləmişik. Ancaq bu, bizi ruhdan salmayıb, əksinə, biz müəllimlər öz şagirdlərimizi vətənpərvərlik ruhunda tərbiyə etməklə gələcəyin Əsgərlərini yetişdirmişik. Mən də dərs dediyim şagirdlərdə bu hissi dərindən aşılamağa çalışmışam. 27 sentyabr 2020-ci il tarixində Vətən müharibəsi başlayanda mənim də vaxtilə dərs dediyim şagirdlərdən çoxu könüllü olaraq mənfur düşmənə qarşı qəhrəmanlıqla döyüşdü. 10 noyabr 2020-ci il Azərbaycan tarixinə qızıl hərflərlə Qələbə Günü kimi yazıldı.

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Mənim doğma Qərvənd kəndim də bu gün azaddır. Mən gələcək günlərdə doğulub boya-başa çatdığım kəndimizdə pedaqoji fəaliyyətimi davam etdirmək arzusundayam. Bu gün çox sevinirəm ki, sabahkı şagirdlərimə Azərbaycan kimi qüdrətli bir ölkənin tarixə qızıl hərflərlə yazılan zəfərindən danışacaq, onlarda Vətənə məhəbbət ruhunu daha da dərindən aşılamağa çalışacağam”.

### O müqəddəs yurda qovuşmaq yenidən dünyaya gəlməyə bərabərdir

*Ağdam rayon 35 nömrəli tam orta məktəbin direktoru İradə İbrahimova* Qarabağ savaşında qazanılan şanlı qələbəmizin tarixə qızıl hərflərlə həkk olunacağını və xalqımızın yaddaşında silinməz iz buraxacağını ifadə edib: “Mən Ağdam şəhərində 6 saylı orta məktəbi bitirmişəm. Ağdamın erməni işğalından azad olunması xəbərini Ali Baş Komandanın dilindən eşitdiyim anda sevincimin hədd-hüdudu yox idi.

İndi bütün ağdamlılar kimi, mən də yalnız və yalnız Ağdamın yenidən qurulması, tikilməsi, dirçəldilməsi haqqında düşünür və bir təhsil işçisi kimi planlar cızıram. Ağdamda tikiləcək yeni məktəblərdə bünövrəli, əsaslı və modern, milli dəyərlərlə tənzimlənən təhsil sisteminə söykənən dərslər tədris etməli, elmimizə böyük töhfələr verəcək layihələr hazırlamalıyıq. O müqəddəs yurda qovuşmaq yenidən dünyaya gəlməyə bərabərdir. Biz o yerləri yenidən cənnətməkan diyara çevirmək üçün əlimizdən nə gəlirsə, edəcəyik!”.

### Sənə qayıdırıq Vətən!

*Ağdam rayon 35 nömrəli tam orta məktəbin müəllimi Aybəniz Zeynalova* Ağdamın gözəl təbiətindən, saf suyundan, təmiz havasından danışdı: “1993-cü ilin 23 iyul günü... Güllü-çiçəkli, bağlı-bağatlı, Ağdamımızı gözü yaşlı, ürəyi dağlı tərk etdik. Mənfur düşmənin yandırdığı evlərimizi ürəyimiz parçalana-parçalana tərk etdik. Gəncliyimizi, uşaqlığımızı qoyduq o yerlərdə. İllərlə göz yaşlarımızı içimizə axıtdıq, amma qəlbimizdəki Vətən sevgisi bir qram da azalmadı, əksinə gündən-günə artdı. İnanırdım ki, azad Qarabağımıza, azad Ağdamımıza qovuşmağa lap az qalıb. İnanırdım ki, Ali Baş Komandanımız xalqımıza verdiyi sözü tezliklə yerinə yetirəcək. Bu gün doğma Qarabağımız, onun ürəyi Ağdamımız azaddır! Bu azadlığı tariximizin səhifələrinə al qanları ilə yazan Vətən oğullarının- Şəhidlərimizin ruhları qarşısında baş əyirəm! Azərbaycan əsgərinə alqış deyirəm!

Mən inanıram ki, Ağdamın əvvəlki gözəlliyi, qaynar həyatı yenə özünə qayıdacaq. “Sona bülbüllər” Ağdam səmalarında süzəcək. Aç qollarını, sənə qurban, gözəl Ağdamım! Sənə gəlirəm...”.

### Gələcəyə hədəflənmiş arzular və vəzifələr

*Ağdam rayonu 68 nömrəli tam orta məktəbin direktoru, kimya elmləri üzrə fəlsəfə doktoru Hüseynalı Hüseynov* Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə 27 sentyabr 2020-ci ildən düşmən təcavüzünün qarşısını almaq üçün başlanan Vətən müharibəsindən danışaraq bildirdi ki, qələbə əsrin dörddə birini keçən yurd-vətən həsrətinə son qoymuşdur: “Qarabağın tacı olan Şuşanın, ürəyi olan Ağdamın, eləcə də digər bölgələrimizin azad edilməsinin sevincini, həyacanını yaşamaqdayıq. Bu tarixi qələbəmizin qazanılması yolunda canlarını fəda etmiş hər bir şəhidimizə Allahdan rəhmət diləyir, Ali Baş Komandana minnətdarlıq edir və Milli Ordumuzun hər bir əsgərinə isə rəhbərlik etdiyim pedaqoji kollektivin adından təşəkkürümü çatdırıram.

Qarşımızda gələcəyə hədəflənmiş arzular və vəzifələr durur. Doğma kəndimizə dönmək, məktəbimizin yenidən tikilməsinə, rayonumuzun əvvəlki şöhrətinin adına layiq şəkildə bərpasına nail olmaq. 1993-cü ildən sonra dünyasını dayişmiş 20 nəfər adlı-sanlı müəllimlərimizin arzularını gerçəkləşdirmək....

Bu yolda təlim və tərbiyə işinin taleyinə cavabdeh olan hər bir müəllim həmkarıma uğurlar diləyirəm”.

**Rəşad ZİYADOV**

# Şagirdlərin elektron yerdəyişməsi davam edir



Noyabrın 16-dan şagirdlərin elektron yerdəyişməsi prosesinə başlanılıb.

Şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına, tədris ili ərzində şagird yerdəyişməsinin hesabatlılığı, statistikası və digər bu kimi məlumatların tez bir zamanda əldə edilməsinə imkan yaradır.

Övladını başqa məktəbə dəyişmək istəyən valideyn və ya digər qanuni nümayəndə, ilk növbədə, *http://www.sy.edu.az* portalına daxil olaraq elektron sistemdə şəxsi kabinet yaradır. Sonra qeydiyyat prosesinə başlayır. Bunun üçün Azərbaycan vətəndaşları şəxsiyyət vəsiqəsinin FİN kodunu, xarici ölkə vətəndaşları miqrasiya sənədinin seriya nömrəsini daxil etməklə əldə olunmuş məlumatları təsdiq edir. Daha sonra istifadə etdiyi mobil nömrəni qeyd edir. Mobil nömrəyə daxil olan SMS-də göstərilmiş təsdiq kodunu müvafiq açılan pəncərəyə daxil edir və qeydiyyat tamamlanır.

Proses yolunda gedərsə, valideyn və ya qanuni nümayəndə şagirdin şəxsi işini əvvəl oxuduğu məktəbdən götürərək dəyişmək istədiyi məktəbə təqdim edir.

Amma prosesdə bəzi problemlər də ortaya çıxa bilər. Məsələn, yerdəyişməyə imtina verilə bilər. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin baş məsləhətçisi Səbinə Hacızadə “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində imtina səbəblərindən danışıb: “Sistem tərəfindən ilkin yoxlamalarda tədris dili uyğunsuzluğu olduğu halda valideyn tərəfindən həmin siniflərə seçim mümkün olmur. Xarici dil, təmayül istiqaməti uyğun gəlmədikdə imtina verilə bilər. İstisna hallar olduqda sorğu şəhər (rayon) təhsil şöbələri tərəfindən təsdiq edilə bilər”.

“İstisna hallar” - deyərkən nədən söhbət gedir? S.Hacızadə X-XI sinif şagirdlərinin yerdəyişməsi ilə bağlı istisnanı qeyd edib: “X-XI sinif şagirdlərinin bir məktəbdən digərinə yerdəyişməsi I-IX sinif şagirdlərinin bir məktəbdən digərinə yerdəyişməsi zamanı olan prosedur əsasında aparılır. Ancaq onlara ailəsi ilə birlikdə yaşayış yerini dəyişdiyi halda yerdəyişmənin məqsədəuyğunluğu müvafiq sənədlər əsasında elektron sistemdə və ya R(Ş)TŞ(İ) tərəfindən təsdiq edildikdə icazə verilir”.

Lisey və gimnaziyaları, məcburi köçkün məktəbləri üzrə siniflərə yerdəyişmə də elektron qaydada aparılır və sistemdə həmin siniflər üzrə qeyd olunan tarixdən etibarən həyata keçirilir. Burada bir istisna da var. Yerdəyişməni lisey və gimnaziyalara edənlərə həmin təhsil müəssisələrinə qəbulun imtahanla aparıldığı xatırladılır.

Xarici ölkələrdən ümumi orta təhsil bazasında da elektron yerdəyişmə mümkündürmü? S.Hacızadənin sözlərinə görə, şagirdlərin ölkədən xaricə və ya xarici ölkələrdən Azərbaycan məktəblərinə yerdəyişməsi də valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin qeydiyyatı aparılmaqla sistem vasitəsilə həyata keçirilir: “Valideyn əvvəlcə yerdəyişmə etmək istədiyi məktəbə yaxınlaşaraq övladının “Ümumi təhsil informasiya” alt sisteminə daxil edilməsi üçün müraciət etməlidir. Məktəb həmin uşağı bazaya daxil etdikdən sonra valideynə övladının UTİS kodunu təqdim edir. Daha sonra valideyn adi qaydada şagirdlərin elektron yerdəyişməsi sistemində qeydiyyatdan keçərək sorğu yerləşdirir. Bu proses istənilən ölkə üçün aparılır və yerdəyişmə istəyən şəxs sistemdə heç bir problemlə qarşılaşmır”.

İstənilən problemin isə çıxış yolu Qeydiyyat mərkəzlərində həll edilir. S.Hacızadə qeyd edib ki, həmin qeydiyyat mərkəzlərinin siyahısı və ünvanı barədə mətbuatda məlumat verilib: “Sadəcə xatırladım ki, alternativ qeydiyyat mərkəzlərinin işi mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi formada təşkil olunub. Ona görə də müraciətçilərdən qoyulan qaydalara əməl etmələrini xahiş edirik”.

Xatırladaq ki, şagirdlərin elektron yerdəyişməsi sistemi komplektasiya (siniflərin komplektləşdirilməsi) dövrləri istisna olmaqla ilboyu fəaliyyət göstərir.

**Ruhiyyə DAŞSALAHLI**

# Son 3 il üzrə direktor vəzifəsinə işə qəbul müsabiqəsinə elektron sənəd qəbulunun nəticələri

Ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin elektron sənəd qəbulu mərhələsində 2018-ci il üzrə 2059, 2019-cu il üzrə 2274, 2020-ci il üzrə isə 2479 namizəd iştirakını təsdiq edib. Elektron ərizələrin yoxlanılması başa çatdıqdan sonra 2018-ci ildə 1568, 2019-cu ildə 2057, 2020-ci ildə 2256 namizədin elektron ərizəsi qəbul olunub.

Son 3 il ərzində keçirilmiş direktor vəzifəsinə işə qəbul üzrə müsabiqədə 30-39 yaş aralığında olan namizədlər üstünlük təşkil edib. Belə ki, 2018-ci ildə 920, 2019-cu ildə 1013, 2020-ci ildə isə 1163 nəfər həmin yaş aralığında olan şəxslərdir.

Müsabiqədə iştirak üçün elektron qeydiyyatdan keçmiş namizədlər arasında 2018-ci il üzrə 16, 2019-cu il üzrə 17, 2020-ci il üzrə 25 nəfər xaricdə təhsil almış şəxslərdir. 2018-ci il üzrə müsabiqədə elektron qeydiyyatdan keçən namizədlərin 1125 nəfərini kişilər, 934 nəfərini qadınlar, 2019-cu il üzrə namizədlərin 1139 nəfərini kişilər, 1135 nəfərini qadınlar, 2020-ci il üzrə isə namizədlərin 1126 nəfərini kişilər, 1353 nəfərini qadınlar təşkil edib.

2020-ci il üzrə elan olunan müsabiqə zamanı vakansiya




və müraciət edən namizəd sayına nisbətdə ən yüksək rəqabətli rayon Ağstafa rayonudur. Belə ki, Ağstafa rayonu üzrə 1 vakant direktor vəzifəsinə 19 namizəd müraciət edib. Ən aşağı rəqabətli rayonlar isə Xocavənd, Xızı, Şabran, Daşkəsən və Ağdaş rayonlarıdır.

**Böyük Vətən müharibəmiz müzəffər Azərbaycan ordusunun qələbəsi ilə bitdi. Bu qələbə xalqımızın qəhrəmanlıq tarixində böyük səlnamələr, dastanlar yazmış oldu. Fərdi qəhrəmanlıq nümunələrini isə saymaqla bitirmək mümkün deyil. Belə qəhrəmanlıq nümunələri göstərmiş igidlərdən biri də mənim şagirdim, yaddaşımda özünəməxsus vətənpərvərlik izi və kişi qeyrəti ilə qalmış Xanoğlandır... Bu yaxınlarda sosial şəbəkələrdə cəsur Azərbaycan əsgərinin qəhrəmanlıq nümunəsinə aid bir paylaşıma rast gəldim. Sevə-sevə diqqətlə oxumağa başladım. Əsgər döyüşlərin qızğın yerində yaralansa da şəhid olmuş əsgər yoldaşının meyidini düşmən əlinə düşməsin deyə özü ilə çəkib gətirir. Qolundan, ayağından yaralansa da özünü və şəhid əsgər yoldaşını döyüş meydanından çıxara bilir. Qanaxmadan huşunu itirsə də Azərbaycan həkimlərinin səyi nəticəsində həyata qaytarılır. Sonda bu əsgərin ad və soyadı yazılmışdı. Mikayılov Xanoğlan Əhməd oğlu...**

# Qələbəyə aparan yol

Bir anlıq xəyal məni 15 il əvvələ apardı. Xanoğlanın 4-cü sinifdə oxuduğu illərə...

...2005-ci ildə ilk dəfə müstəqil olaraq birinci sinif şagirdlərini qəbul etdim. Hər bir müəllim sinifdə 2-3 şagirdin digər şagirdlərdən daha diqqətçəkən məqamlarının olduğu üçün ilk andaca onlara bağlanır. Həmin sinifdə də mənim diqqətimi ilk andan çəkən, doğal müsbət keyfiyyətləri ilə özünü sevdirməyi bacaran Xanoğlan adlı sarışın, göygöz oğlan oldu.

İstər sinif, istərsə də sinifdənxaric məşğələlər zamanı Xanoğlan çox aktiv idi. Necə deyərlər, hadisələri qabaqlayırdı. Tədris edilən hər hansı dərs zamanı nə istədiyimi ondan ala bilirdim. Sanki ürəyimi oxuyurdu. Sakit duruşu, ağıllı gözləri, güclü yaddaşı, aydın nitqi ilə adamı heyran edirdi. O, dərsə gəlməyəndə bütün dərs boyu gözlərim onu axtarırdı.

Həmişə hekayələri səhnələşdirərkən ona epizodik rollar da, baş rollar da verirdim. Hər bir rolu özünəməxsus canlandırmaqla yaddaqalan edirdi. Çox maraqlı uşaq idi. Verdiyi sualların dolğunluğu ilə də yaşıdlarından fərqlənirdi.

Yaxşı yadımdadır, Xanoğlan 4-cü sinifdə oxuyurdu. Xocalı faciəsinin anım gününə həsr olunmuş mövzunu tədris edirdim. Əvvəlcə mətni oxudum. İnsanların başına gətirilən müsibətli səhnələri oxuduqca uşaqların sifətində bir dəhşət, eyni zamanda, düşmənə qarşı bir nifrətin də olduğunu aydınca hiss elədim. Düşmən əsgərinin günahsız insanlara qarşı misli görünməmiş qəddarlığı uşaqları hədsiz qəzəbləndirirdi. Sonra bu faciəni əks etdirən bir səhnəcik hazırladım. Səhnəcikdə düşmən əsgərinin rolu da var idi. Rol bölgüsündə üzümü Xanoğlana tutub dedim:

- Xanoğlan, düşmən əsgəri rolunu canlandırmağı sənə tapşırıram.

Bu sözü eşidən kimi onun üzündə nifrət, qəzəb qarışıq sərt görkəm yarandı və dedi:

- Müəllim, mən erməni əsgəri olmaq istəmirəm, - deyə çöhrəsində bir həlimlik, eyni zamanda, bir məğrurluq yaradaraq dedi:

- Mən Azərbaycan əsgəri olmaq istəyirəm. Çünki Azərbaycan əsgəri düşmən uşağını heç zaman öldürmür. Mən bunu “Fəryad” filmində görmüşəm. Sonra uşaqların hamısı bu roldan imtina etdilər. Sonda məcbur olub ssenarini dəyişdim.

Sonra belə bir sualla müraciət etdim:

Bəs siz necə, düşmən uşağını öldürərsiniz?

Hamı bir ağızdan yox dedi. Axı o böyüyüb sizi öldürə bilər. Xanoğlan ayağa qalxıb:

- Müəllim, onda biz də böyüyəcəyik. Əsgərliyə gedəcəyik. O da gedəcək. Əgər o da bizim uşaqları öldürsə, bax mən onu əsgərlikdə öldürəcəm, - deyə ötkəm dilləndi.

Bir anlıq qarşımda 4-cü sinif şagirdinin deyil, əli silahlı vətənin keşiyini çəkən bir igid əsgərin durduğunu hiss etdim. Fəxarətdən, qürurdan gözlərimdən sevinc yaşları axdı.

Həmin gündən bu sual məndə bir ənənə halını aldı. Dərs dediyim bütün siniflərdə bu sualı uşaqlara verirəm. Hər biri düşmən uşağı olsa belə uşaq qatili olmaq istəmədən yox deyir. Amma bu günə kimi bu suala Xanoğlan kimi cavab verən olmayıb.

Bunun heç də təsadüf olmadığı gün kimi aydındır. Xanoğlan kimi vətənpərvər oğullarda hardan qaynaqlanır bu vətən sevgisi, ruh yüksəkliyi? Əlbəttə ki, ailədən, məktəb və müəllimlərdən.

Qarabağ uğrunda haqq savaşımızda əfsanəyəbənzər qəhrəmanlıqları ilə bütün dünyanı lərzəyə gətirən, dövlətçiliyə xidmət edən oğulların hər biri son 20-30 il ərzində təhsil müəssisələrində məqsədli şəkildə yetişən vətənpərvərlərdir. Torpaqlarımızın hər qarışı uğrunda ölüm-dirim savaşı aparan, bu yolda sağlamlığını itirən, canından keçən qazi və şəhidlərimizi vətənpərvər yetişdirən də məhz məktəblərimiz və müəllimlərimizdir.

Bu baxımdan çalışdığım I Şıxlı kənd tam orta məktəbinin bütün müəllim heyəti də vətənpərvərlik hisslərini daim şagirdlərinin ruhuna hopdurmağa çalışır. Bunun bariz nümunəsi olaraq Qarabağ uğrunda haqq savaşımızda mərdliklə vuruşaraq canlarından keçən şəhidlərimizin qəhrəmanlıq və mərdliklərini nümunə kimi göstərmək olar. Onlar bizim məktəbin fəxri məzunlarıdır. Sizlərlə qürur duyuruq! Bizlərə ard-arda qələbə sevincini yaşadan şəhid və qazilərimiz qarşısında baş əyirik!

Həmin vətənpərvər oğullarımızın igidlikləri qarşısında düşmənin dizi qatlanıb, beli büküldü və noyabrın 10-da səhərimizi 28 il həsrətlə gözlədiyimiz böyük QƏLƏBƏ xəbəri ilə açdıq. Hər kəs bir ağızdan “Gözün aydın Azərbaycan!”, “Qələbə bizimdir!”, “Qarabağ Azərbaycandır!” söylədi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli iradəsi və uzaqgörən siyasəti, yenilməz ordumuzun şücaəti və cəsarəti, arxa cəbhədə ordumuza dəstək olan qürurlu xalqımızın “dəmir yumruq” rəmzi olan birliyi sayəsində möhtəşəm zəfər sevincini yaşaya bildik.

Şanlı zəfər tariximizin qızıl səhifələrinə öz qanları ilə imza atan igid, qeyrətli oğullarımızın rəşadətindən hər zaman qürurla danışacağıq.

Ən sonda üzümü analara tutub deyirəm:

Hər zaman uşaqlarınızı vətənpərvərlik ruhunda böyüdün. Onlar beşikdəykən Vətən ruhlu bayatılarla layla çalın. Bu hissi elə beşikdəcə körpələrin ruhuna hopdurun. Onlara anaya, Vətənə, bayrağımıza aid şeirlər əzbərlətdirin.

Əziz nənələr! Siz də nəvələrinizə nağıl danışanda daha nağıl personajların mifik qəhrəmanlıqlarından deyil, Qarabağ uğrunda haqq savaşında döyüşən ordumuzun əfsanəyəbənzər real qəhrəmanlıqlarından danışın. Qorxunc divlərdən, təpəgözlərdən deyil, onlardan da kabus olan ermənilərin bəd əməllərindən danışın.

Vətənini, liderlərini, azadlığını, istiqlalını sevən bir millətin gücünü, iradəsini qıra biləcək dünyada heç bir qüvvə yoxdur.

Yaşasın, Azərbaycan xalqı!
Yaşasın, Azərbaycan Ordusu!
Yaşasın, Ali Baş Komandanımız!

**Kətanə ALIYEVA,**
**Qazax rayon I Şıxlı kənd tam orta məktəbinin ibtidai sinif müəllimi**

# "QARABAĞın məşhur müəllimləri"




## Xudu Məmmədov

Xudu Məmmədov 1927-ci il dekabrın 14-də Ağdam rayonunun Mərzili kəndində anadan olub. 1951-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) fərqlənmə diplomu ilə başa vurub və müəllimi Heydər Əfəndiyevin təkidi ilə Azərbaycan Elmlər Akademiyasının Kimya İnstitutuna təyinat alıb.

Kristalloqrafiya, kristallokimya, quruluş mineralogiyası, simmetriya nəzəriyyəsi, quruluş təhlili sahələrində dünyada tanınmaqla bərabər, fəlsəfə, mədəniyyətşünaslıq sahələrində tədqiqatları alimə dünya şöhrəti gətirib. "Elmin Vətəni yox, alimin Vətəni olmalıdır" deyən Xudu Məmmədov uşaqların, gənclərin bu ruhda böyüməsini istəyirdi: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil. Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər" deyirdi.

Görkəmli alimin elmimizdə açdığı yol "Xudu məktəbi" adlandırılıb. Xudu Məmmədov ilk dəfə "Bakı kristalloqrafiya məktəbi" yaradıb, onun rəhbərliyi ilə 40-dan çox yüksək səviyyəli alim hazırlanıb, onlardan 30-u namizədlik, 10-u isə doktorluq dissertasiyası müdafiə edib. Xudu Məmmədov həmişə müəllim və müəllimlik sənəti haqqında iftixarla danışıb: "Müəllim yalnız dərs deyən, sadəcə olaraq bir-iki saat sinif otaqlarında şagird və tələbələrlə təmasda olan şəxsiyyət, adi tərbiyəçi deyil. O, zaman və gənclik arasında körpü yaradan, öz şəxsiyyəti ilə nümunə olan, sabahın qurucularını hazırlayan, millətin gələcəyi üçün böyük məsuliyyət daşıyan canlı bir varlıqdır. O, adi gəncdən tutmuş bütün dünyanın müəllimidir".

## Lətif Kərimov

Lətif Kərimov 1906-cı ildə Şuşa şəhərində anadan olub.

Lətif Kərimov Azərbaycanda xalçaçılıq elminin banisidir. Azərbaycan Respublikası Elmlər Akademiyasının (indiki AMEA) Memarlıq və İncəsənət İnstitutunda ayrıca xalça sənəti şöbəsini açmağa nail olub, ömrünün sonunadək həmin şöbənin rəhbəri kimi çalışıb, eyni zamanda M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) pedaqoji fəaliyyətlə məşğul olub.

Xalça sənətinə məhəbbəti olan Lətif Kərimovun ilk dəfə olaraq Bakıda və Qubada (1932—1936) xalça məktəblərinin açılmasında böyük zəhməti olub. Azərbaycan xalça sənətinin elm sahəsi kimi öyrənilməsi və peşəkar xalçaçı rəssamların yetişdirilməsi məhz onun adı ilə bağlıdır. Həm tələbkar, həm də mərhəmətli müəllim olub. O, təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərib. Görkəmli sənətkar Azərbaycan xalçalarına əsl mənada ikinci ömür verib, onların dünya miqyasında tanıdılmasında böyük işlər görüb. Böyük sənətkarın təşəbbüsü ilə 1967-ci ildə Azərbaycan Xalça Muzeyinin əsası qoyulub, 26 il sonra isə muzeyə onun adı verilib.

"Şuşa havamdır" deyən Lətif Kərimov, "Ən sevimli xalçanız hansıdır?" sualına belə cavab verib: "Özümün yaratdığım bütün xalçalar mənim üçün əzizdir".







## Cabbar Qaryağdıoğlu

Cabbar Qaryağdıoğlu 1861-ci ildə Şuşada "Seyidli" məhəlləsində anadan olub. Azərbaycan milli musiqi mədəniyyəti tarixində Cabbar Qaryağdıoğlunun özünəməxsus yeri var. O, təkcə xanəndə olmayıb, həm də istedadlı bəstəkar və şair kimi tanınıb. Azərbaycan xanəndəlik sənətinin yeni bir mərhələsi onun adı ilə bağlıdır. Azərbaycan Dövlət Konservatoriyasının ilk təşkilatçılarından biri olub.

Cabbar Qaryağdıoğlu Azərbaycan xalq musiqisinin canlı tarixi, ensiklopediyası adlandırılır. Onun oxuduğu muğam və xalq mahnıları Azərbaycanın musiqi xəzinəsinin ən qiymətli inciləridir. Cabbar Qaryağdıoğlunun ölkəmizdə opera sənətinin meydana gəlməsində də rolu böyükdür, opera səhnəmizin ilk aktyoru məhz odur. O, həm böyük sənətkar, həm də qayğıkeş müəllim idi. Şagirdlərinin qayğısına qalar, onlara səslərini qorumağı tövsiyə edərdi: "Səs və gözəllik Allah vergisidir. Gərək onların qədrini biləsən. Birinci növbədə səsini qorumalısan".

# MDU və Almaniyanın Siegen Universiteti arasında birgə layihənin icrasına start verilib

Noyabrın 23-də Mingəçevir Dövlət Universiteti (MDU) və Almaniyanın Siegen Universiteti arasında "Sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi" mövzusunda birgə layihənin icrasına start verilib. Layihə çərçivəsində ilk təlimin 23-27 noyabr tarixlərində, ikinci təlimin isə 30 noyabr - 4 dekabr tarixlərində keçirilməsi nəzərdə tutulur.

Mingəçevir Dövlət Universitetindən AZƏRTAC-a bildirilib ki, "Zoom" platforması üzərindən onlayn formatda təşkil edilən təlimlərin açılış mərasimində çıxış edən MDU-nun rektoru Şahin Bayramov təlimlərin tələbələr və heyət üçün faydalı olacağına əminliyini bildirib. İki universitet arasında uzunmüddətli əməkdaşlığın əsasını qoyacaq birgə layihənin əhəmiyyətindən danışan rektor təlimlərin iştirakçılarda sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsini hədəflədiyini diqqətə çatdırıb. Təlimlərdə MDU-nun İqtisadiyyat və idarəetmə, Mühəndislik və Pedaqoji fakültələrini təmsil edən tələbə və magistrantların, eləcə də akademik və inzibati heyət üzvlərinin iştirak etdiyini vurğulayan Ş.Bayramov qlobal pandemiya səbəbindən onlayn formatda reallaşdırılan layihənin baş tutmasında əməyi olanlara təşəkkürünü bildirib.

MDU ilə birgə layihənin həyata keçirilməsindən məmnunluğunu ifadə edən Siegen Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin kafedra müdiri, professor Petra Muq layihə çərçivəsində təşkil olunacaq təlimlərin faydalı olması üçün bütün hazırlıqların görüldüyünü bildirib. Təlimin mövzuları barədə danışan P.Muq tədbir iştirakçılarına təlimlərin nəzəri, praktiki və texniki nüansları barədə ətraflı məlumat verib.

Sonra təlimlərə start verilib.

Qeyd edək ki, MDU və Siegen Universiteti tərəfindən hazırlanmış birgə layihənin cari ilin noyabr-dekabr aylarında icrası nəzərdə tutulur. Siegen Universitetinin professor-müəllim heyəti və Almaniyanın uğurlu sahibkarlıq təcrübəsi olan iş adamları tərəfindən keçiriləcək təlimlərdə MDU-nun tələbə, magistrant və məzunları, eləcə də gələcəkdə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı arzulayan Mingəçevir gəncləri iştirak edəcəklər. Təlimlər sahibkarlıq, biznes-planların hazırlanması, startapların yaradılması, maliyyə mənbələrinə çıxış yolları və digər mövzuları əhatə edəcək. Təlim iştirakçıları üçün praktiki bacarıqlarını inkişaf etdirmək, işgüzar oyunlarda iştirak etmək və ideyalarını biznesə çevirmək səriştələri qazanmaq imkanları yaranacaqdır.

Regional ekosistemin inkişafına töhfə verməyi hədəfləyən layihə çərçivəsində təşkil olunan təlimlərə biznesdə uğur qazanmış bir neçə yerli sahibkar qonaq məruzəçi qismində cəlb ediləcək. Sonda ən yaxşı təqdimat və biznes-planlar hazırlayan təlim iştirakçıları mükafatlandırılacaq.

Təqdirəlayiq haldır ki, yeni dövrün tələblərinə uyğun olaraq sürətlə modernləşən MDU qarşısına qoyduğu hədəflərə çatmaq üçün yerli və xarici universitetlərlə əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6805, **Sifariş** 2700

**Məsul növbətçi:** O.Mustafayev


# Dərsi uşaqlara özünəməxsus qaydada tədris edən müəllim



Azərbaycan müəllimlərinin tam böyük əksəriyyəti layiqli müəllimdir. Əgər belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq. Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Arzu edərdim ki, müəllim obrazı elə yaransın ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın.

Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olub. Mən tək deyiləm, hesab edirəm, Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti belə düşünür.

Müəllimlərin fərdin şəxsiyyət, vətəndaş kimi formalaşmasında rolu böyükdür. Belə müəllimlərdən biri də Sona Həmzəyevadır...

Sona Həmzəyeva öz ixtisasını dərindən bilən və bunu şagirdlərinə də dərindən izah edən müəllimdir. O, özünəməxsus tədris təlimini şagirdə özgüvənc və təhsilə, elmə, el-obaya, milli dəyərlərə sevgi aşılamaq üzərində qurub. Eyni zamanda, şagirdlərə - "özünü dərk etmədən başqasın anlamağın çətin olar, həyatın mürəkkəbləşər" deməklə başqa dil, mədəniyyət, millət, inancı da sevdirməyi təşviq edir. Sona xanımın "Ölkəmiz, onun təbiəti, tarixi haqqında bilgiləriniz çox olarsa, Vətənə məhəbbətiniz, sevginiz yetərincədirsə, bu, şəxsiyyətinizin, xarakterinizin formalaşmasında mühüm rol oynayacaq" fikirləri də ibrətamizdir.

Sona Həmzəyevanın haqqında yazıya elə onun həyat yoluna işıq salmaqla başlamağı daha ədalətli və düzgün bildik. 1978-ci il mayın 4-də Sumqayıt şəhərində anadan olub. 1995-ci ildə Sumqayıt şəhəri 26 nömrəli orta məktəbi bitirib və həmin ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olub. 1999-cu ildə 14 nömrəli məktəbdə və 3 il 1 nömrəli uşaq evində ərəb dili dərsi keçib. Sonra 2002-2003-cü illərdə ixtisasını dəyişmək üçün Azərbaycan Müəllimlər İnstitutunun İbtidai metodika fakültəsində təhsil alıb. 2004-cü ildə Qafqaz Universitetinin İbtidai siniflərdə informatika fənninin tədrisi fakültəsində oxuyub və 2005-ci ildə müvəffəqiyyətlə bitirib. 2012-ci ildən Sumqayıt şəhər Şah İsmayıl Xətai adına 30 nömrəli orta məktəbdə ibtidai sinif nüəllimi kimi fəaliyyətə başlayıb.

2016-2017-ci tədris ilində təlimdə qazandığı müvəffəqiyyətlərə və ibtidai sinifdə bütün fənləri sevdirdiyinə görə 30 nömrəli tam orta məktəbin rəhbərliyi tərəfindən Sona Həmzəyeva fəxri fərmanla təltif edilib. 2015-ci ildə Sumqayıt şəhər Təhsil Şöbəsi və Təhsil İşçiləri Azad Həmkarlar Təşkilatı Sumqayıt Şəhər Komitəsinin "Riyaziyyat" fənnindən keçirdikləri fənn aylığında "Müəllimin ən yaxşı açıq dərsi" nominasiyasının qalibi olduğu üçün fəxri fərmanla təltif olunub. 30 may 2015-ci ildə Sumqayıt şəhəri üzrə keçirilən fənn aylığı çərçivəsində "Ən yaxşı açıq dərs" nominasıyasının qalibi olduğuna, 2018-ci ildə isə təlimdə qazandığı müvəffəqiyyətlərə və ictimai işlərdə fəal iştirak etdiyinə görə məktəb direktoru tərəfindən onu fəxri fərmana layiq görüb. 2018-ci ildə Sumqayıt şəhər 1 nömrəli Uşaq - Gənclər İnkişaf Mərkəzinin rəhbərliyi tərəfindən "İstedad sorağında" teatr müsabiqəsində "Ən yaxşı tamaşa dekorasiya" nominasiyası üzrə qalib gələrək Diplomla mükafatlandırılıb.

Sona Həmzəyeva rayonda həyata keçirilən layihələrə inanaraq dəstək, xeyir-dua verib. Deyir ki, insanların dostluğunun, könül birliyinin mükəmməl olmasında əsil-nəsil, şəxsiyyətlər nə qədər rol oynayıbsa, tutduqları yolun dürüstlüyü də mühüm rol oynamışdır. O, yurdumuzun tarixini, ölkəmizin təbiətini, adət-ənənələrini, doğma Azərbaycanı sevir, mənəvi körpü rolunu həmişə fəxrlə, qürurla qeyd edir. Dərslərində fidanlara vətənpərvərlik hisslərini aşılayır, onlara gələcəkdə torpağı, Vətəni necə sevməyi öyrədir.

Sona müəllimin özəl metodikası var. O, dərsi özünəməxsus qaydada uşaqlara tədris edir. Onun üçün hansısa bir standart, bir qayda yoxdur. O, çox maraqsız olan mövzunu elə formada təqdim edir ki, bir dərs həmin mövzunun qavranılması üçün yetərli olur.

Bəli, Sumqayıtdakı 30 nömrəli orta məktəbin ibtidai sinif müəllimi Sona Həmzəyeva müəllim ömrünü həyat dənizində üzən yelkənsiz insan qayıqlarına səadət və xoşbəxtlik yolunu göstərən mayaka bənzədir. "O mayak müəllim neçə- neçə ömür yoluna işıq saçıb, övladlarımızın bilik qazanmaları, tərbiyəli, sağlam və gümrah böyümələri üçün öz işığını - gərgin, gözlə görünməyən əməyini əsirgəməyib və bundan sonra da əsirgəməyəcək. Bəlkə elə buna görədir ki, müəllimlik peşəsi bütün dövrlərdə müqəddəs peşə hesab edilib. Tarixin inkişafına müsbət təsir göstərən dahilər də, nəhəng elmi kəşflər edən alimlər də, öz xalqını, ədəbiyyat və mədəniyyətini dünyada tanıdan sənətkarlar da, vətəni yolunda canlarından keçən qəhrəmanlar da, ilk növbədə, öz müəllimlərini minnətdarlıqla xatırlayıblar.

Bu sətirlər həyatı zəhməti ilə naxışlanan bir müəllim-pedaqoqun, mənəvi sərvəti fikir dünyası olan bir insanın qələmindən süzülüb gəlib. Şagirdlər də müəllim həmkarları da qayğıkeş və səmimi Sona müəllimin nüfuzlu sözünə inanırlar. Onun erudisiyasını, demokratik üslubunu və bənzərsiz mənəvi keyfiyyətlərini yüksək qiymətləndirirlər.

# Etibarsız sayılır

**Ukrayna Lvov Politexnik Milli Universitetini** 2016-cı ildə bitirmiş İbrahimov Kamal Asəf oğluna 2017-ci ildə Təhsil Nazirliyi tərəfindən təsdiqlənib verilmiş 014387-014832 nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abbasov Elvin Əvəz oğluna verilmiş A-516074 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Romantseva Albina Ruslanovnaya verilmiş A-139140 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb Lisey** Kompleksini 2015-ci ildə bitirmiş Abiyeva Zemfira Vadim qızına verilmiş A-401997 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu** tərəfindən 1973-cü ildə Cəfərov Mirzəxan Həkiməli oğluna verilmiş Я-096711 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 12 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Abbasov Nazim Oktay oğluna verilmiş B-451183 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Piral kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Qaraxanov Kamran Maksim oğluna verilmiş B-650427 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Piral kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Qaraxanov İmran Maksim oğluna verilmiş B-727935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Əcəxur kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Qurbanov Yadigar Həmid oğluna verilmiş A-266463 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Xürel kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Əzizova (Şixzadayeva) Vəfanə Faid qızına verilmiş A-323294 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2008-ci ildə Vəlixanova Sofiya Kerimxanovnaya verilmiş B-137984 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** M.Xəzani adına Gimnaziyanı 2012-ci ildə bitirmiş Əsgərzadə Nazim Qərib oğluna verilmiş A-141431 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Bəhmətli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədova Zümrüd Yaqub qızına verilmiş B-327118 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2000-ci ildə Səfərova Rəna Fəxrəddin qızına verilmiş A-055260 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2006-cı ildə Məmmədova Günel Əzizağa qızına verilmiş B-079052 nömrəli bakalavr fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Haramı kənd əsas məktəbi 1995-ci ildə bitirmiş İmranova Sahibə Mətləb qızına verilmiş A-105030 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2015-ci ildə İsmayılzadə Günel Rəşid qızına verilmiş AA-056953 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Mosul kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Bəkirov Bəkir Riyazəddin oğluna verilmiş A-158330 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb-Lisey Kompleksi** 2014-cü ildə bitirmiş İsmayılov Fariz Mübariz oğluna verilmiş A-293832 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Pespublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2020-ci ildə Kərimova Türkan Bəyəndik qızına verilmiş C-062863 nömrəli bakalavr fərqlənmə diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 236 nömrəli tam orta məktəbi** 2013-cü ildə bitirmiş Əliyarlı Mətin Emin oğluna verilmiş AN-186720 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kitabxanaçılıq Texnikumu** (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) tərəfindən 1984-cü ildə Həsənov Aydın Yunis oğluna verilmiş ЖГ-770627 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1996-cı ildə Hüseynova Səadət Toğrud qızına verilmiş AB-I-039142 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Fiziki İmkanları Məhdud Uşaqlar üçün 5 nömrəli internat məktəbi**ni 2016-cı ildə bitirmiş Şıxəliyev Natiq İlham oğluna verilmiş 002749 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2017-ci ildə Səmədov Mirzəağa Fuad oğluna verilmiş A-110393 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon Vel kənd tam orta məktəbi** (rus bölməsi) 1997-ci ildə bitirmiş Dyomina Olesya Nikolayevnaya verilmiş A-034205 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon Qayabaşı kənd tam orta məktəbi** 2004-cü ildə bitirmiş Rüstəmov Səxavət Faris oğluna verilmiş B-056206 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.



# Şuşada qələbə paradının keçirilməsi ən böyük arzumdur

Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü siyasəti, sarsılmaz iradəsi, məqsədyönlü fəaliyyəti, yüksək idarəçilik dəyərləri və xalqımızın birgə həmrəyliyi ilə Azərbaycan Ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazandı. Azərbaycan xalqının qəlbində iftixar mənbəyinə çevrilən ordumuz indi düşmən üçün qorxulu bir kabusdur. Qalib xalqın vətəndaşı olmaq...Görəsən, dünyada bundan gözəl bir hiss ola bilərmi? Məncə yox. Bəli, bu gün biz qürurla deyə bilərik ki, yenilməz ordusu olan Azərbaycanın vətəndaşıyıq. Xalqımız üçün artıq 27 ilik Vətən həsrəti sona çatdı. İşğal altında olan torpaqlarımız mənfur düşmənin tapdağından azad olundu. Bəli, bu gün uşaqdan böyüyə, hər kəs sevinc və qürur yaşayır. İdman dünyasının tanınmış simalarından biri, Olimpiya çempionu Elnur Məmmədlinin də qələbə günü ilə bağlı fikirlərini öyrəndik.

**Rəşad ZİYADOV**

## *Elnur Məmmədli:* "Olimpiya çempionu olanda heç bu qədər sevinməmişdim"

O, bizimlə söhbətinə belə başladı. İkinci Qarabağ müharibəsi ilə önəmli zəfər qazanıldı və artıq Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Müharibə 44 gün çəkdi. Bizim qəhrəman igidlərimiz bu müddət ərzində düşmənə layiq olduğu yeri göstərdi. Onlar bundan sonra neçə illər keçsə də bu məğlubiyyətlərini unutmayacaqlar. Çünki ordumuz onlara heç vaxt ayağa dura bilməyəcəyi zərbə vurdu. Bizim bu qələbə hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müharibə vaxtı hamının duası Müzəffər Ordumuzun və Ali Baş Komandanımızın üzərində idi. Bizə bu qələbəni bəxş edən Müzəffər Ordumuza nə qədər təşəkkür etsək, azdır. Bu gün böyük gündür. İllərdir ürəyi Vətən həsrəti ilə yanıb alışan soydaşlarımızın arzusu həyata keçdi, Vətən uğrunda canlarından keçən qəhrəmanlarımızın ruhu şad oldu, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. Bu günlərdə bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Hər birimiz Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik. Məhz onun rəhbərliyi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində güclü Azərbaycan Ordusu düşməni məğlub edərək xalqımıza bu qələbə sevincini yaşatdı.

Mən olimpiya çempionu olanda heç bu qədər sevinməmişdim. Bu sevinc xoşbəxtliyini sözlə ifadə etmək mümkün deyil. Mən bilirəm ki, bu gün uşaqdan böyüyə hər kəs mənim yaşadığım hissləri yaşayır. Vətənin azadlığı sevgisini yaşamaq ayrı bir ülvi hissdir. Hərdən özüm-özümə düşünürəm. İnsan övladı üçün Vətəndən əziz nə ola bilər? Heç nə...

*- Elnur müəllim, bəs haradan başlayır Vətən?*

- Məncə, Vətən insanın ruhundan, qəlbindən və yurda bağlılığından başlayır. Dünyaya ilk gələn körpələrə analar "oğlum, tez böyü, əsgər get" deyə-deyə laylalar çalırlar. Bu laylaları eşitdikcə həmin duyğular onların qanına hopur. Analarımız uşaqları igid kimi, qəhrəman kimi tərbiyə edir, onları vətənpərvər ruhda böyüdürlər. Fikrimcə, bu gün Vətən müharibəsində əldə etdiyimiz böyük qələbədən bir hissəsi qəhrəman analarımızın da payına düşür. Vətənpərvərlik ruhunda böyüyən igidlərimiz Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı ilə parçalanmış Azərbaycan xəritəsini bütövləşdirdilər. Vətənin dar günündə igid oğullarımız sinələrini sipər edərək yurdumuzu düşməndən qovdular. Şəhidlik zirvəsinə ucalanı da oldu, yaralanı da. Burada bir məqamı qeyd etmək istəyirəm ki, min bir əziyyətlə övladlarını böyüdüb boya-başa çatdıran analar övladlarının şəhidliyi ilə qürurlandılar, əyilmədilər, başlarını düşmən qarşısında daha da dik tutdular. Bəlkə də elə ona görədir ki, "ana" sözü ilə "vətən" sözü qoşa çəkilir: Vətənə "Ana vətən" deyilir... Bu mərd, mübariz, qəhrəman vətən övladları öz doğma topaqları uğrunda canlarını fəda edərək, gələcək nəsillərin də Vətəni böyük məhəbbətlə sevməsinə, qorumasına nümunə ola biləcək şərəfli iz qoydular".

Azərbaycan əsgərinin qəhrəmanlığı həm də onu təsdiq etdi ki, Vətən, torpaq, şücaət kimi tarixən xalqımıza məxsus olan anlayışlar yenə də yaşayır və bundan sonra da yaşayacaqdır. Azərbaycan var olduqca igidlərimizin belə qəhrəmanlıqlarının şahidi olacağıq. Elə buna görədir ki, indi Azərbaycan Ordusunun adı çəkiləndə hər bir azərbaycanlı qürur duyur. Azərbaycan gənci orduda qulluq etməsini özünə şərəf sayır. Vətən borcunu ödəməyi özünün ən böyük amalı olaraq qəbul edir. Doğma torpağı uğrunda Mübariz, Fərid kimi ölümün gözünə dik baxmağa, sevə-sevə şəhidlik zirvəsinə ucalmağa hazırdır.

*- Elnur Məmmədli üçün yarışlarda düşmən təmsilçisi ilə qarşılaşmaq nə deməkdir?*

- Mən indiyə qədər bir çox yarışlarda istər dünya, Avropa çempionatlarında, istərsə də Olimpiya çempinatlarında və beynəlxalq turnirlərdə erməni idmaçısı ilə qarşılaşmışam. Təbii ki, hər bir idmançı kimi mən də ancaq və ancaq qələbə haqqında düşünmüşəm. Və bütün qarşılaşmalarımda böyük fərqlə qələbə qazanmışam. Sualınıza cavab olaraq onu da əlavə etmək istəyirəm ki, düşmən təmsilçisi ilə qarşılaşanda mənim gözümün önünə Xocalı faciəsi və Qarabağda ermənilərin xalqımıza qarşı törətdiyi vəhşilik, vandallıq və saysız-hesabsız qətliamlar gəlir. Xocalıda baş verənlər, əsirlikdən qayıdan ayaqyalın uşaqların, ana və bacılarımızın gücsüz, taqətsiz yerişləri, qaçqınlıq



həyatı yaddaşlardan heç vaxt silinməyəcək...

Sonda "Azərbaycan müəllimi" qəzeti vasitəsilə xalqımıza Vətənimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad olunması münasibətilə bir daha gözaydınlığı vermək istərdim. Ən böyük arzum isə dilbər guşəmiz olan Şuşada qələbə paradının keçirilməsidir.